22 noyabr 2023 №86 (2055)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2023-cü il sentyabrın 25-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilmişdir. Bu qərar Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olub İslam mədəniyyətinin zənginliklərini dolğun təzahür etdirən Şuşaya xüsusi ehtiramın ifadəsidir və İslam dünyasının həmrəyliyinin yeni rəmzinə çevrilməklə qarşılıqlı əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsində özünəməxsus rol oynayacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin;

**1.2.** bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 21 noyabr 2023-cü il**

## "Bu sahədə peşəkar bir formata ehtiyac var"

Mədəniyyət Nazirliyi tərəfindən kinematoqrafiya, rəqəmsal və digər audiovizual əsərlərin məzmununun qiymətləndirilməsi üzrə Ekspert şurası yaradılıb.

Bu münasibətlə noyabrın 20-də Azərbaycan Milli İncəsənət Muzeyində toplantı keçirilib.

Mədəniyyət naziri Adil Kərimli tədbir iştirakçılarını salamlayaraq yeni Ekspert şurasının yaradılması zərurətindən danışıb.

*səh. 2*

## Varşavada Qarabağ xanlığı haqqında albom-kitabın təqdimatı

Varşava Etnoqrafik Muzeyində Azərbaycanın Polşadakı Səfirliyi, Avrasiya Beynəlxalq İnkişaf Assosiasiyası və Gürcüstan Milli Muzeyinin təşkilatçılığı ilə "Qarabağ xanlığı: tarixi və mədəni kimlik" adlı albom-kitabın təqdimat mərasimi və konfrans keçirilib.

*səh. 2*

## Üzüm, şərab və mədəni irs...

25-26 noyabr tarixlərində Şamaxı rayonunun Meysəri kəndində 2-ci Üzüm və Şərab Festivalı keçiriləcək. Dövlət Turizm Agentliyi və Şamaxı Rayon İcra Hakimiyyətinin təşkil etdiyi festivalın məqsədi yerli üzüm və şərab istehsalının təşviqi, şərab məhsullarının ixrac potensialının artırılması, Azərbaycanda üzümçülük və şərab istehsalı tarixinin və bu sahədə görülən işlərin geniş ictimaiyyətə çatdırılmasıdır.




Festival çərçivəsində müxtəlif tədbirlər – şərab dequstasiyaları, yarmarkalar, yerli və beynəlxalq ekspertlərin iştirakı ilə someliye kursları, musiqili proqramlar, əyləncələr təşkil olunacaq. Qonaqlara "Azərbaycanda şərabçılıq və şərab istehsalı tarixi" haqqında məlumat xarakterli təqdimatlar nümayiş etdiriləcək.

Sərgi, əyləncə, piknik, suvenir, kulinariya kimi zonaları olan festival ərazisində ziyarətçilər yerli və xarici istehsalçıların şərab məhsullarını dequstasiya edə, həmçinin bəyəndikləri məhsulları ala biləcəklər.

iTicket.az saytı vasitəsilə qeydiyyatdan keçən şəxslərin 25 və 26 noyabr tarixlərində Heydər Əliyev Mərkəzinin qarşısından Meysəri kəndinə aparılıb-gətirilməsi təşkil olunacaq.

Qeyd edək ki, Dövlət Turizm Agentliyi tərəfindən Azərbaycanın beynəlxalq səviyyədə tanınan yerli üzüm sortlarının və şərab növlərinin mövcudluğu nəzərə alınaraq şərabçılıq turizminin beynəlxalq səviyyədə təbliğatı aparılır. Azərbaycan 20 ölkənin şərabçılıq marşrutunu özündə birləşdirən, Avropa Şurası və Avropa Mədəni Marşrutlar İnstitutu tərəfindən şərab irsi və şərabçılıq turizmini, eləcə də dayanıqlı turizm növlərini təşviq etmək məqsədilə yaradılmış "İter Vitis" maddi və qeyri-maddi şərabçılıq mədəni marşrutunun üzvüdür.

## Payızın forum, festival, müsabiqə havası...




Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə noyabrın 27-dən dekabrın 3-dək "Yaradıcı həftə" keçiriləcək. Layihə Prezident İlham Əliyevin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrası ilə əlaqədar reallaşacaq.

Layihənin məqsədi mədəniyyət və yaradıcı sənayelərin vahid sahə kimi formalaşması və bazar iştirakçılarının fəaliyyətinin dəstəklənməsi, o cümlədən sahəvi klasterləşmənin təşviqidir.

Həftədə müvafiq dövlət qurumlarının rəhbərləri, yaradıcı sektorun təmsilçiləri, onlarla beynəlxalq və yerli təşkilatın nümayəndələri, yüzlərlə yaradıcı şəxs, şirkətlər və ictimai birliklər iştirak edəcək.

"Yaradıcı həftə"də kreativ məhsulların sərgisi, hakatonlar (proqramçıların müxtəlif problemləri həll etdikləri, layihələr hazırladıqları və yarışdıqları tədbirlər silsiləsi), yaradıcı diskussiyalar, müsabiqə, festival, təqdimat və digər tədbirlərin keçirilməsi planlaşdırılır.

***

"Yaradıcı həftə" çərçivəsində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 28-30 noyabr tarixlərində Heydər Əliyev Mərkəzində Mədəniyyət və Yaradıcı Sənayelər Forumu keçiriləcək.




Forum ekosistem oyunçuları arasında qarşılıqlı əməkdaşlıq perspektivlərinin və mövcud problemlərin müzakirəsi, yaradıcı sənaye sahəsinin kompleks şəkildə inkişaf imkanlarının araşdırılması məqsədilə təşkil olunacaq.

Tədbirdə müvafiq dövlət qurumlarının rəhbərlərinin və kreativ sektorun təmsilçilərinin iştirakı ilə ayrı-ayrı sahələr üzrə yaradıcı sənayelərə dair panel sessiyalar və dəyirmi masalar təşkil ediləcək.

Forum müddətində kreativ məhsulların və yaradıcı sənaye nümayəndələrinin fəaliyyətinin tanıdılması məqsədilə Mədəniyyət və Yaradıcı Sənayelər Sərgisi (MY EXPO – 2023) keçiriləcək. Sərgi kino, animasiya, musiqi, cultech (mədəniyyət sahəsində startaplar), gametech (oyun texnologiyaları), dəb, dizayn kimi yaradıcı klasterləri, eləcə də yaradıcı məkan və regionları bir araya gətirəcək. "Türk dünyası animasiya şəbəkəsinin qurulması", "Türk dünyasının yumor sahəsi üzrə əməkdaşlıq perspektivləri" və digər mövzularda dəyirmi masalar keçiriləcək.




***

Dekabrın 2-də həftə çərçivəsində Mədəniyyət Nazirliyinin dəstəyi ilə Nizami Kino Mərkəzində Türk Dünyasının Yumor Festivalı keçiriləcək.

Festival Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Tatarıstanın (RF) yumor dünyasının nümayəndələrini bir araya gətirəcək. Münsiflər heyətinin qiymətləndirməsinə əsasən ölkələrdən biri qalib seçiləcək.

Festival qarşılıqlı peşəkar və yaradıcı fəaliyyətin təşviq edilməsinə və bu sahədə birgə yaradıcı layihələrin həyata keçirilməsinə töhfə verəcək. Tədbirdə iştirak etmək üçün iTicket.az saytından bilet əldə edə bilərsiniz.

## Münasibətləri "Bir millət, yeddi dövlət" olaraq inkişaf etdirməliyik

Noyabrın 21-də Bakıda Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə və Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) 15 illiyinə həsr olunmuş konfrans keçirilib.

Konfransda çıxış edən Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədr müavini Bekir Bozdağ Türkiyə, Azərbaycan və Türk dünyasının digər ölkələrinin tarixi dostluq və qardaşlığı möhkəmləndirmək üçün çalışdıqlarını vurğulayıb.

Bildirib ki, dünyadakı hazırkı mürəkkəb vəziyyət Türk dövlətlərinin birlikdə olmasını zərurətə çevirir. Bekir Bozdağ münasibətləri "Bir millət, yeddi dövlət" (Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Şimali Kipr) olaraq inkişaf etdirməyin əhəmiyyətindən danışıb.




Tədbirdə Qırğız Respublikası Joqorku Keneşinin üzvü Dastanbek Cumabekov, TBMM-in üzvləri Ahmet Zenbilci, Osman Mesten, Milli Məclisin deputatları Əhliman Əmiraslanov, Hikmət Babaoğlu, TürkPA-nın baş katibi Mehmet Süreyya Er və digər çıxış edənlər Türk dünyasının birləşməsinin tarixi zərurətə çevrildiyini vurğulayıblar. Ulu öndər Heydər Əliyevin Türk dünyası üçün gördüyü işlər minnətdarlıqla xatırlanıb.

Çıxışlarda ortaq mədəniyyətin, tarixin, dilin, dinin türk dövlətlərinin bütün sahələrdə əməkdaşlığının inkişafına zəmin yaratdığı diqqətə çatdırılıb. Türk dövlətləri arasında təhsil sahəsində münasibətlərin, o cümlədən əlifba və dil birliyinin vacibliyi, tələbə təqaüdlərinin təsis olunmasının əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb.

Qeyd olunub ki, qlobal imperializmə, eyni zamanda islamofobiyaya qarşı mübarizə üçün Türk dünyasının birgə əməkdaşlığı vacibdir.

## Dizayn ixtisasının tədrisində yeni mərhələ



Noyabrın 20-də Beynəlxalq Muğam Mərkəzində ölkəmizdə dizayn ixtisası üzrə ilk kadr buraxılışının 25 illiyinə həsr olunan sərgi keçirildi. Sərgi çərçivəsində Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) yeni yaradılan Dizayn fakültəsinin təqdimatı oldu.

Tədbirdə çıxış edən AzMİU-nun rektoru professor Gülçöhrə Məmmədova bildirdi ki, Prezident İlham Əliyevin rəhbərliyi, diqqət və qayğısı ilə işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa, tikinti-quruculuq işləri həyata keçirilir. Bu da ölkədə xüsusilə şəhərsalma, memar, inşaat mühəndisi və dizayn ixtisasları üzrə mütəxəssislərə tələbatı xeyli artırır. Tələbatın qarşılanması üçün Memarlıq və İnşaat Universitetində Dizayn fakültəsi yaradılır.

Məqsəd bu ixtisas üzrə hərtərəfli, daha keyfiyyətli, eyni zamanda daha çox sayda kadr hazırlamaqdır: "Azərbaycanda bu ixtisas ilk dəfə bizim universitetdə 1994-cü ildə mühit dizaynı olaraq yaradılıb. 1998-ci ildə isə Memarlıq fakültəsinin nəzdində Dizayn kafedrası təsis edildi və bu ixtisas üzrə tələbə qəbulu həyata keçirildi. 1998-ci ildə mühit dizaynı ixtisası üzrə ilk bakalavr, 2000-ci ildə isə magistr buraxılışları reallaşdırıldı".

*davamı səh. 3-də*

## Kinomuza yeni nəfəs gətirən sənətkar



1956-cı ildən "Azərbaycanfilm" kinostudiyasında çalışmağa başlayan Rasim Ocaqovun operator kimi ilk sərbəst işi "Onun böyük ürəyi" filmi olur.

R.Ocaqovun 1973-cü ildən quruluşçu rejissor kimi böyük sənətkarlıqla ərsəyə gətirdiyi müxtəlif janrlı filmlər ("Qatır Məmməd", "Tütək səsi", "İstintaq", "Ölsəm, bağışla", "Təhminə", "Həm ziyarət, həm ticarət" və s.) kino salnaməmizdə xüsusi yer tutur.

*səh. 6*



Naxçıvan teatrı Bakıda qonaq olub

*səh. 3*



Baba yurdu Cəbrayıla gələn amerikalı Qarabağlı

*səh. 4*



Filarmoniyada Eldar Mansurovun yaradıcılıq gecəsi

*səh. 5*

## Ç.Ə.Fərzəliyevin “Şərəf” ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan təsviri sənətinin inkişafında və təbliğində böyük xidmətlərinə görə Çingiz Əbdül Məcid oğlu Fərzəliyev “Şərəf” ordeni ilə təltif edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 18 noyabr 2023-cü il**

## İraq Prezidenti İçərişəhərlə tanış olub

Xəbər verildiyi kimi, İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid 20-21 noyabr tarixlərində Azərbaycanda rəsmi səfərdə olub.



İraq Prezidenti noyabrın 21-də dünya mədəni irs abidələrindən biri olan İçərişəhərlə tanış olub.

Gəzinti zamanı ali qonaq orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarix-memarlıq abidəsi Şirvanşahlar Sarayı Kompleksini ziyarət edib.

Məlumat verilib ki, XV əsrin əvvəllərində inşa olunmuş tarixi abidənin tikililəri İçərişəhərin təpələrindən birinin ən hündür nöqtəsində yerləşir. O, Xəzər dənizindən və şəhərin ətrafındakı yüksəkliklərdən aydın görünür. Kompleks bu günədək öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır.

Kiçik Qala küçəsi ilə gəzinti zamanı İraq Prezidentinə UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu, burada aparılan abadlaşdırma və bərpa işləri barədə məlumat verilib. Qeyd edilib ki, İçərişəhər ərazisində müxtəlif əsrlərə aid nadir tarixi memarlıq abidələri var və bunlar dövlət tərəfindən qorunur.

Əbdüllətif Camal Rəşid burada isti təndir çörəyinə qonaq edilib.

## İstiqlal Muzeyində “Azad ruhlar”

Azərbaycan İstiqlal Muzeyinin təşkilatçılığı ilə Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş “Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün” adlı layihə çərçivəsində “Azad ruhlar” adlı növbəti tədbir-sərgi keçirilib.



Muzeydən bildirilib ki, tədbirdə Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan gizir Hüseyn Qasımov, baş çavuş Kamil Şixmuradov, əsgər Orxan Teymurlu, kiçik çavuş Murad Xəlilli və əsgərlər Əhməd Mollaçiyev, İmam Əliyev və Elvin Məlikməmmədovun əziz xatirələri yad edilib.

Sərgidə Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyinin səyi nəticəsində toplanmış və İstiqlal Muzeyinin fondlarında qorunub saxlanılan Vətən müharibəsi şəhidlərinin şəxsi əşyaları, fotoşəkillər, sənədlər və müxtəlif hərbi geyimlər nümayiş olunur.

Tədbirdə şəhid ailələri, Heydər Əliyev adına Hərbi İnstitutun, 5 nömrəli Texniki peşə məktəbinin tələbələri, könüllülər iştirak ediblər.

İstiqlal Muzeyində sərgi noyabrın 28-dək davam edəcək.

## Ölkəmizin turizm imkanları Dohada səyahət sərgisində

Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə ölkəmizin turizm imkanları Qətərin paytaxtı Dohada keçirilən “Qatar Travel Mart” sərgisində nümayiş etdirilir.




Dövlət Turizm Agentliyindən (DTA) bildirilib ki, xüsusi formada dizayn edilmiş milli stenddə ziyarətçilərə Azərbaycanın tarixi, milli mətbəx nümunələri, ekoturizm, dağ-xizək mərkəzləri, sağlamlıq və qış turizmi imkanları haqqında ətraflı məlumat verilir.

Milli stenddə ölkəmizi Azərbaycan Turizm Bürosu və 7 turizm sənayesi tərəfdaşı təmsil edir.

Beynəlxalq sərgi çərçivəsində iştirakçı turizm sənayesi nümayəndələri ilə B2B (Biznesdən biznesə) formatlı görüşlər keçirilir, qarşılıqlı əməkdaşlıq imkanları qiymətləndirilir.

Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid “Dünya səviyyəli dayanıqlı destinasiya və xidmətlərin yaradılması” mövzusunda keçirilən panel diskussiyada iştirak edib.

Azərbaycanın Qətər Dövlətindəki səfiri Mahir Əliyev milli stendi ziyarət edərək sərginin gedişatı ilə tanış olub.

Qeyd edək ki, noyabrın 22-də başa çatacaq sərgidə 60 ölkənin turizm sənayesi təmsil olunur.

# “Bu sahədə peşəkar bir formata ehtiyac var”

### Kinematoqrafiya, rəqəmsal və digər audiovizual əsərlər üzrə Ekspert şurası yaradılıb

Mədəniyyət Nazirliyi tərəfindən kinematoqrafiya, rəqəmsal və digər audiovizual əsərlərin məzmununun qiymətləndirilməsi üzrə Ekspert şurası yaradılıb.



Bu münasibətlə noyabrın 20-də Azərbaycan Milli İncəsənət Muzeyində toplantı keçirilib.

Mədəniyyət naziri Adil Kərimli tədbir iştirakçılarını salamlayaraq yeni Ekspert şurasının yaradılması zərurətindən danışıb. Qeyd edib ki, kinematoqrafiya, rəqəmsal və audiovizual məzmunlar, yəni mediaya aid olmayan sahədə əsərlərin qiymətləndirilməsi üzrə peşəkar bir formata ehtiyac var idi: “Düşünürük ki, bu fəaliyyət sahənin peşəkarları üçün də vacibdir”.

Daha sonra bildirilib ki, nazirliyin kollegiyasının müvafiq qərarı ilə Ekspert şurasının tərkibi və əsasnaməsi müəyyən edilib. İctimai əsaslarla fəaliyyət göstərəcək şuranın məqsədi dövlət tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulan əsərlərin, həmçinin istehsal yerindən asılı olmayaraq, ölkə ərazisində ictimai qaydada yayımlanan kinematoqrafiya və digər audiovizual əsərlərin (audiovizual media materialları istisna olmaqla), o cümlədən rəqəmsal platformaların və internet informasiya ehtiyatları vasitəsilə yayımlanan məzmunların qiymətləndirilməsindən ibarətdir.

Şura tərəfindən qiymətləndirmə əsərin uşaqlar üçün zərərli informasiya olub-olmaması, Azərbaycan dilinin, mədəni dəyərlərin qorunması və inkişafına, ümumi estetik tərbiyənin gücləndirilməsinə töhfə verməsi, mövzusunun aktuallığı və mədəniyyətin inkişafının prioritet istiqamətlərinə uyğunluğu kimi meyarlara əsasən aparılır.

Bildirildi ki, səlahiyyət müddəti iki il olan şura müvafiq sahə üzrə mütəxəssislərdən və ekspertlərdən ibarət tərkibdə formalaşdırılır. İclasları ildə dörd dəfədən az olmayaraq keçirilir. İclaslar onlayn keçirilə bilər. İclas vaxtı sadə səs çoxluğu ilə iclas üzvləri tərəfindən müəyyən olunur.

Ekspert şurasının fəaliyyətinin təşkili məqsədilə katiblik yaradılır. Katiblik şuranın iclaslarını təşkil edir. Şuraya daxil olan müraciətlərin qanunvericiliyin və bu əsasnamənin tələblərinə uyğunluğunu yoxlayır. İclasların keçiriləcəyi vaxt və yer barədə üzvlərə məlumat verir. İclasın gündəliyini, protokolunu tərtib edir və imzalanmaq üçün üzvlərə təqdim edir. Müraciətlərin uçotunu aparır, onları təhlil edir, ümumiləşdirir.

Azərbaycan Respublikasının Kino Agentliyi tərəfindən bu ilin iyul ayında elan edilən film layihələri müsabiqəsinin pitçinq mərhələsində qalib layihələr də Ekspert şurasının rəyi əsasında müəyyən olunacaq.

Toplantıda daha sonra Ekspert şurası üzvlərinin çıxışları dinlənilib, fikir mübadiləsi aparılıb.

# Hələ də müstəmləkə siyasəti yürüdən dövlətlər mövcuddur

### “13 ölkəni müstəmləkə əsarətində saxlayan Fransa hər kəsə dərs verməyə çalışır”

Dünyada hələ də, yəni, XXI əsrdə müstəmləkə siyasəti yürüdən ölkələr mövcuddur. Hərdən düşünürsən ki, bu siyasət ötən yüzillikdə qalıb. Amma təəssüflər olsun ki, belə deyil.

Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bu fikirləri noyabrın 21-də Bakıda keçirilən “Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması” mövzusunda beynəlxalq konfrans zamanı jurnalistlərə açıqlamasında söyləyib.

Hikmət Hacıyev bildirib ki, Avropa İttifaqının üzvü Fransa dənizaşırı ərazilərdə (Fransadan minlərlə kilometr uzaqda, Sakit, Atlantik və Hind okeanlarında ada-ölkələr – red.) 13 ölkəni müstəmləkə əsarətində saxlayır. “Bakı konfransında bu ərazilərdən gələn insanları dinləyəndə görürsən ki, onlar XVII və XVIII əsrlərdə olduğu kimi, hələ də Fransa müstəmləkəçiliyindən əziyyət çəkdiklərini dilə gətirirlər. Qəmər adaları Fransa tərəfindən işğal edilib və bu gün onun ilhaqı siyasəti həyata keçirilir.

Bu gün Fransa Avropa ölkəsi olaraq hər kəsə dərs verməyə çalışır. Bəs o zaman bu ölkə onun müstəmləkə siyasətindən əziyyət çəkən, hüquqları pozulan insanları niyə dinləmir? Fransada islamofobiya amilləri güclənməkdədir. Bu ölkədə müsəlmanların hüquqları pozulur. Fransa bu insanlar, beynəlxalq ictimaiyyət qarşısında məsuliyyət daşımır”, – deyə Hikmət Hacıyev diqqətə çatdırıb.

Prezidentin köməkçisi bildirib ki, Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində üzv ölkələrin müstəmləkə siyasətindən əziyyət çəkməsini diqqətdə saxlayır. QH-nin təməl prinsipini isə məhz müstəmləkə siyasətinə qarşı mübarizə təşkil edir.

Qeyd edək ki, Hikmət Hacıyev Bakıda keçirilən “Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması” mövzusunda beynəlxalq konfransda Prezident İlham Əliyevin iştirakçılara müraciətini səsləndirib.

Beynəlxalq konfrans çərçivəsində panel müzakirələr, həmçinin Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə “Dekolonizasiya: qadınların gücləndirilməsi və inkişafı” mövzusunda iclas keçirilib.

# Varşavada Qarabağ xanlığı haqqında albom-kitabın təqdimatı

Varşava Etnoqrafik Muzeyində Azərbaycanın Polşadakı Səfirliyi, Avrasiya Beynəlxalq İnkişaf Assosiasiyası (ABİA) və Gürcüstan Milli Muzeyinin təşkilatçılığı ilə “Qarabağ xanlığı: tarixi və mədəni kimlik” adlı albom-kitabın təqdimat mərasimi və konfrans keçirilib.

Xatırladaq ki, Heydər Əliyev Fondunun təşəbbüsü və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin dəstəyi ilə nəşr olunan “Qarabağ xanlığı: tarixi və mədəni kimlik” albom-kitabında Qarabağın tarixi ilə bağlı çar Rusiyası dövründən toplanan və əvvəlcə Tiflisdəki Qafqaz Canişinliyinin arxivlərində, sonra isə Gürcüstan Milli Muzeyində saxlanılan qiymətli fotomateriallar yer alıb. İndiyədək bir sıra ölkələrdə təqdim olunan nəşr Azərbaycanın mədəni irsinin, xüsusilə Qarabağ xanlığı dövründəki mədəni irsin dünyada tanıdılması istiqamətində çox mühüm əsərdir.




Təqdimatdan öncə Varşava Etnoqrafik Muzeyinin foyesində “Qarabağ xanlığı: Qarabağın mədəni irsinin inciləri” adlı sərgi keçirilib. Sərgidə Gürcüstan Milli Muzeyinin kolleksiyalarında qorunan, paytaxtı Şuşa şəhəri olan muxtar Azərbaycan dövləti Qarabağ xanlığına (1747-1822) aid artefaktların fotoreproduksiyaları nümayiş etdirilib.

Konfransda muzeyin direktoru Maqdalena Vroblevska və Azərbaycanın Polşadakı səfiri Nərgiz Qurbanova açılış nitqi ilə çıxış ediblər. İngilis, fransız və ispan dillərində işıq üzü görən nəşrin həm Polşa, həm də Avropa ictimaiyyəti arasında Qafqazın mədəni mərkəzlərindən biri olan Şuşa və bütün Qarabağ bölgəsində Azərbaycanın mədəni irsi haqqında geniş təsəvvürün formalaşmasında mühüm rol oynayacağı nəzərə çatdırılıb.

Roma Sapienza Universitetinin araşdırmaçısı Daniel Pommier Vinçellinin moderatorluğu ilə keçirilən müzakirələrdə Gürcüstan Milli Muzeyinin şef kuratorun müavini Tebrone Nadiradze və Vitold Pileçski Həmrəylik İnstitutunun əməkdaşı, antropoloq Jerji Rahoçinski alban mədəniyyətinə aid olan mədəni artefaktların süni şəkildə erməniləşdirilməsini, Rusiya imperiyası dövründə toplanmış və bu gün Gürcüstanda qorunan etnoqrafik materialların Qarabağın Azərbaycan milli mədəniyyətinin mühüm mərkəzlərindən biri olmasını sübut etdiyini xüsusi vurğulayıblar.

Müzakirələrə yekun vuran və əsas çıxışçı qismində məruzə edən ABİA-nın sədri Elçin Əsgərov XIX əsrdə Azərbaycanın Rusiya və İran arasında bölünməsindən sonra Qarabağ ərazisinə ermənilərin kütləvi şəkildə köçürülməsindən danışıb. O, albom-kitabda əks olunan rəsmlərdən misal gətirərək, faktlara söykənərək Qarabağda tarix boyu aparıcı mədəni və siyasi kimliyin məhz Azərbaycan mədəniyyətinə və milli kimliyinə aid olduğunu diqqətə çatdırıb.

Sonda “Qarabağ xanlığı: tarixi və mədəni kimlik” kitabı tədbir iştirakçılarına hədiyyə edilib.

## Xalq artisti Əli Əsgərovun xatirə gecəsi keçiriləcək

Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının təşəbbüsü ilə noyabrın 25-də Azərbaycan klassik vokal məktəbinin görkəmli nümayəndəsi, Prezident mükafatçısı, Xalq artisti Əli Əsgərova (1961-2023) həsr olunmuş xatirə gecəsi keçiriləcək.



Bakı Musiqi Akademiyasının Opera studiyasında gerçəkləşəcək anım gecəsində Əli Əsgərovun həyat və yaradıcılığından bəhs edən filmin ilk təqdimatı olacaq.

Eyni zamanda vokalçının öz ifası və vaxtilə çıxış etdiyi operalardan məşhur ariyalar səslənəcək.

Əli Əsgərov 25 noyabr 1961-ci ildə Bakıda anadan olub. Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) vokal şöbəsini və aspiranturasını bitirib. 1989-cu ildən Akademik Opera və Balet Teatrının solisti idi. Teatrın səhnəsində bir çox opera tamaşalarında, eləcə də Fransa, Almaniya, Rusiya, Türkiyə, Ukrayna, Gürcüstan və s. ölkələrdə opera festivallarında, vokal müsabiqələrində çıxış edib, laureat adını qazanıb. 1997-ci ildə Bakıda Bülbül adına Vokalçıların I Beynəlxalq Müsabiqəsinin Qran-pri mükafatçısı olub.

1998-ci ildə “Azərbaycan Respublikasının Əməkdar artisti”, 2012-ci ildə “Xalq artisti” fəxri adlarına, dəfələrlə Prezident mükafatına layiq görülüb.

Tanınmış vokalçı, Xalq artisti Əli Əsgərov bu il fevralın 23-də, ömrünün 62-ci ilində vəfat edib.

## ICESCO Azərbaycanla əməkdaşlığı daha da gücləndirmək istəyir

Azərbaycana gəlmək mənim üçün böyük sevinc və qürur mənbəyidir. Səfərimizin məqsədi ICESCO ilə Azərbaycan arasındakı yüksək səviyyəli əməkdaşlığı daha da gücləndirməkdir.

ICESCO-nun Sosial və insan elmləri üzrə departamentinin direktoru Ramata Almami Mbaye bunu jurnalistlərə açıqlamasında söyləyib.

O, ICESCO-nun qadınların özünü inkişaf etdirməsi və irəliləməsi, onların cəmiyyətdə yeri kimi məsələlərdə tam dəstəyini vurğulayıb.

“Azərbaycana səfərimiz ICESCO-nun Qoşulmama Hərəkatına üzvlüyü çərçivəsində baş tutub. Biz burada öz təcrübəmizi bölüşməklə yanaşı, qadınların, gənc qızların və yeniyetmələrin talelərini gündəliyimizdə ön plana keçirməyə çalışırıq. Müzakirələrimizdə prioritet məsələ isə çətin vəziyyətdə olan uşaqlarla bağlı olacaq. Bir çox ölkədə gənc qızlar, yeniyetmələr hələ də çox çətin vəziyyətdədir. Biz ərzaq, iqlim böhranı kimi məsələlərlə bağlı fikir mübadiləsi aparmalı, Azərbaycan xalqına tam dəstəyimizi bildirməliyik”, – deyə Ramata Almami Mbaye bildirib.

# Mədəniyyətlər bir araya gələndə

## Sankt-Peterburq forumunda mədəniyyətin inkişafı müzakirə olunub

Xəbər verdiyimiz kimi, 16-18 noyabr tarixlərində Rusiyanın şimal paytaxtı Sankt-Peterburqda IX Beynəlxalq Mədəniyyət Forumu keçirilib. "Birləşmiş mədəniyyətlər forumu" adı altında gerçəkləşən builki foruma 73 ölkədən nümayəndə heyəti, eləcə də 30 ölkənin mədəniyyət nazirləri qatılıb.

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimlinin rəhbərlik etdiyi nümayəndə heyəti forumda iştirak edib.

Forum çərçivəsində Adil Kərimli ilə Rusiyanın mədəniyyət naziri Olqa Lyubimova arasında görüş keçirilib. Görüşdə Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu da iştirak edib.

İki ölkə arasında mədəni əlaqələrin tarixi və inkişaf perspektivləri müzakirə olunub. Olqa Lyubimova Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinin Rusiyada da geniş qeyd olunduğunu vurğulayıb.

Söhbət zamanı qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi ilə bağlı müzakirə aparılıb.

Azərbaycanın mədəniyyət naziri həmkarını 2024-cü ildə Bakıda keçiriləcək VI Dünya Mədəniyyətlərarası Dialoq Forumuna dəvət edib.

Rusiya nazirinə "Şuşa – zirvədən uca" kitabı hədiyyə olunub.

### Mədəni suverenlik dövlətin əsasları kimi

Mədəniyyət naziri Adil Kərimli forum çərçivəsində noyabrın 17-də "Mədəni suverenlik dövlətin əsasları kimi" mövzusunda plenar iclasda çıxış edib.

Nazir Azərbaycan mədəniyyətinin tarixinə nəzər salaraq ölkəmizdə əsrlər boyu müxtəlif xalqların və dinlərin nümayəndələrinin dinc yanaşı, tolerantlıq şəraitində yaşadığını vurğulayıb.

Qeyd olunub ki, Ulu öndər Heydər Əliyevin dövlət quruculuğu ənənələri əsasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə müasir mədəniyyət siyasətinin konseptual əsasları yaradılır, mədəni irsin qorunması sahəsində dövlət proqramları, investisiya layihələri və dəstək tədbirləri həyata keçirilir.





Bildirilib ki, Azərbaycanın mədəni zənginliklərinin qorunması və təbliği üzrə milli və beynəlxalq layihələrin reallaşmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu müstəsna rol oynayır.

İclasda çıxış edən Rusiyanın mədəniyyət naziri Olqa Lyubimova çoxqütblü dünyada mədəniyyətlərin müxtəlifliyinin qorunub saxlanılmasının vacibliyini vurğulayıb, "Avrasiya" kino mükafatının və "İnterviziya" mahnı müsabiqəsinin təsis edilməsi təklifini irəli sürüb.

Qeyd edək ki, Sankt-Peterburq IX Beynəlxalq Mədəniyyət Forumu çərçivəsində beynəlxalq teatr əməkdaşlığı, mədəni irsin qorunması, xalqların etnomədəni sahədə əməkdaşlığı və s. mövzularda panel diskussiyaları, dəyirmi masalar, digər tədbirlər təşkil edilib.

Tədbirin sonunda "Ermitaj" mükafatı laureatlara təqdim olunub.

# Dizayn ixtisasının tədrisində yeni mərhələ

*əvvəli səh. 1-də*

Rektor dizayn ixtisasının yaradılmasından sonra bu istiqamətdə tədqiqatlara başlandığını, beynəlxalq əməkdaşlıq əlaqələrinin qurulduğunu dedi. Bildirdi ki, sahə üzrə xarici təcrübəni daha dərindən öyrənmək üçün 2018-ci ildə Azərbaycan və İtaliya prezidentlərinin iştirakı ilə imzalanan "Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə İtaliyanın Milan Politexnik Universiteti arasında anlaşma memorandumu"na əsasən, universitetimizdə İtaliya-Azərbaycan Dizayn Mərkəzi yaradılıb. Azərbaycanda dizayn üzrə ali təhsilin Avropa standartlarına uyğun formalaşdırılmasında bu mərkəzin böyük əhəmiyyəti oldu. Mərkəzdə başladılan və uğurla davam etdirilən əlaqələr nəticəsində AzMİU ilə Milan Politexnik Universiteti arasında dizayn ixtisası üzrə ikili diplom proqramı həyata keçirilir: "Bu günə kimi 1400-ə yaxın məzunumuz olub. Əlbəttə, ölkəmizdə aparılan tikinti-quruculuq və abad işləri fonunda bu, yetərli deyil. Yeni fakültənin yaradılması, dizayn üzrə kadr hazırlığının genişləndirilməsi və keyfiyyətin artırılması, ümid edirəm ki, bu çağırışa adekvat cavab olacaq".




Universitetin Qrafik və media dizaynı kafedrasının müdiri Təranə Bəkirova təhsil ocağının dizaynın tədrisi sahəsində zəngin təcrübə qazandığını qeyd etdi: "Əldə etdiyimiz təcrübə ilə biz dizayn ixtisasını şaxələndirdik. Bu gün universitetimizdə dizayn üzrə artıq iki kafedra fəaliyyət göstərir – Qrafik və media dizaynı və Mühit dizaynı kafedraları. Bu tədris ilindən bakalavr səviyyəsində dizaynın sahələri üzrə, magistratura səviyyəsində isə üç ixtisas – memarlıq mühitinin dizaynı, dizayn və texniki estetika, vizual dizaynı və media üzrə kadr hazırlığı həyata keçirilir".

Qeyd olundu ki, hazırda AzMİU-da dizayn ixtisası üzrə tədris Azərbaycan, ingilis və rus dillərində aparılır. Tədrisə yerli mütəxəssislərlə yanaşı, universitetin əməkdaşlıq müqavilələrinə əsasən xarici mütəxəssislər, xüsusilə İtaliya universitetlərinin müəllimləri də cəlb olunur. Tələbə və müəllim mübadiləsi, eyni zamanda ikili əməkdaşlıqlar çərçivəsində tələbələr mütəmadi olaraq dizayn ixtisası üzrə ən qabaqcıl təcrübəyə sahib Avropa universitetlərinə göndərilir. Bu da onların beynəlxalq təcrübəni, dizayn üzrə müasir trendləri də öyrənmələrinə imkan yaradır.

AzMİU-nun nəzdində İtaliya-Azərbaycan Dizayn Mərkəzinin rəhbəri Fərid Kərimov, elm və təhsil nazirinin müavini Firudin Qurbanov ölkəmizdə dizayn sahəsinin və tədrisinin əhəmiyyətindən söz açdılar.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxışı zamanı diqqətə çatdırdı ki, dizayn elmi, texniki və mədəni sahələri özündə birləşdirir. Belə bir mürəkkəb ixtisasa sahib olan dizayner istehlakçı psixologiyasını, informasiya qavrayış qanunlarını yaxşı bilməli, analitik təfəkkür və təşkilatçılıq bacarığına malik olmalıdır. Memarlıq və dizayn sahəsində təhsilin müasirləşdirilməsi, islahatların aparılması daim dövlətimizin diqqət mərkəzindədir. Ölkəmizdə bu sahəyə böyük tələbatın olduğunu nəzərə alsaq, dizayn sahəsində aparılan islahatlar təqdirəlayiqdir.

Azərbaycan Memarlar İttifaqı İdarə heyətinin sədri Elbəy Qasımzadə, AMEA Memarlıq və İncəsənət İnstitutunun direktoru professor Ərtegin Salamzadə də çıxışlarında dizayn ixtisasının tədrisinin əhəmiyyətini vurğuladılar. Qeyd olundu ki, universitetdə yeni fakültənin yaradılması ölkəmizdə bu sahədə işləri daha mütəşəkkil həyata keçirməyə şərait yaradacaq.

Çıxışlardan sonra qonaqlar sərgi ilə tanış oldular. Sərgidə AzMİU-nun dizayn ixtisası tələbələrinin 25 il müddətində toplanan əl işləri və layihələri nümayiş etdirilir.

**Lalə Azəri**

# Qətər səfirindən Milli Kitabxanaya hədiyyə



Qətərin Azərbaycandakı səfiri Feysal bin Abdullah Həməd Abdullah əl-Hinzab Milli Kitabxanada olub.

Direktor müavini Ədibə İsmayılova qonağa Milli Kitabxananın tarixi, fəaliyyəti, fondu haqqında məlumat verib, bu il Milli Kitabxananın 100 illik yubileyi olduğu diqqətə çatdırılıb.

Səfir Azərbaycanla Qətər arasında qarşılıqlı münasibətlərdən danışıb və bu münasibətlərin daha da inkişaf edəcəyinə inandığını bildirib. Diplomat Milli Kitabxanaya ölkəsinin tarixi, mədəniyyəti, ədəbiyyatı və s. mövzularda nəşrlər hədiyyə edib.

Qonağa Milli Kitabxana və Bakı ilə bağlı albom-kitablar və Azərbaycan xəritəsi təqdim olunub.

Qeyd edək ki, qətərli diplomat Azərbaycanda fəaliyyətini başa vurur və yaxın günlərdə ölkəsinə dönəcək.

# ABİ-də gənc ifaçıların beynəlxalq müsabiqəsi

Noyabrın 22-23-də Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) Xalq artisti, professor Azər Dadaşovun fortepiano əsərlərindən ibarət gənc ifaçıların VI Beynəlxalq müsabiqəsi keçiriləcək.

İttifaqdan bildirilib ki, müsabiqənin proqramına bəstəkar Azər Dadaşovun Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Fortepiano və orkestr üçün poema"sı daxildir.

Müsabiqədə Azərbaycan, Rusiya, Türkmənistan və İranın ali musiqi tədris müəssisələrini bitirmiş gənc ifaçılar iştirak edəcək.

Mükafatçılar ABİ-nin sədri Xalq artisti, professor Firəngiz Əlizadənin rəhbərliyi ilə münsiflər heyəti tərəfindən seçiləcək.

Qeyd edək ki, "Heydər Əliyev İli" ilə bağlı indiyədək ABİ tərəfindən silsilə tədbirlər, o cümlədən konsertlər, konfranslar, yeni kitabların təqdimatları keçirilib.

# "Xoşbəxtlik dövrünün teatr sənəti"

## Şuşa teatrı Aşqabadda festivalda iştirak edib

Xəbər verdiyimiz kimi, 14-16 noyabr tarixlərində Türkmənistanın paytaxtı Aşqabadda "Xoşbəxtlik dövrünün teatr sənəti" adlı IV Beynəlxalq Teatr Festivalı keçirilib. Ölkəmizi festivalda Şuşa Dövlət Musiqili Dram Teatrı təmsil edib.

Sənət ocağı festivala Xalq yazıçısı İlyas Əfəndiyevin eyniadlı əsəri əsasında səhnələşdirilən "Boy çiçəyi" tamaşasını aparıb. Kollektiv noyabrın 15-də Türkmənistan Baş Dram Teatrının səhnəsində çıxış edib. Üç müxtəlif insan taleyi, üç nakam məhəbbət hekayəsi türkdilli ölkələrin təmsilçilərini bir araya gətirən festivalda alqışlarla qarşılanıb.

Tamaşanın quruluşçu rejissoru Əməkdar artist Loğman Kərimov, quruluşçu rəssamı Valeh Məmmədov, musiqi tərtibatçısı Əməkdar artist Azad Məmmədovdur. Rolları Əməkdar artistlər Nazir Rüstəmov (Həsənzadə), Azad Məmmədov (Fərəc), aktyorlar Zəhra Salayeva (Nargilə) və Püstəxanım Zeynalova (Nəzakət) ifa edirlər.

Xatırladaq ki, türkdilli ölkələrin teatr mübadiləsi, yeni yaradıcılıq meyillərinin öyrənilməsi və dünya teatr prosesinə inteqrasiyası məqsədi daşıyan Aşqabad festivalı iki ildən bir keçirilir.

# Gəncədən gələn "Xanuma"



Gəncə Dövlət Dram Teatrının kollektivi 18-19 noyabr tarixlərində Bakı tamaşaçıları qarşısında çıxış edib. Yaradıcı heyət Akademik Milli Dram Teatrının səhnəsində gürcü dramaturqu A.Saqarelinin eyniadlı əsəri əsasında Mikayıl Mikayılovun quruluş verdiyi "Xanuma" tamaşasını nümayiş etdirib.

Xatırladaq ki, müəllifin bu əsəri ölkəmizdə bir sıra teatrlarda səhnəyə qoyulub. Pyes son olaraq eyni rejissorun səhnə həllində Akademik Milli Dram və Akademik Musiqili teatrlarında hazırlanıb. M.Mikayılov Gəncə səhnəsində mövzuya fərqli rakursdan yanaşmağa çalışıb və "Xanuma"nı musiqili parodiya janrında qurub.

Məişət mövzulu komik hadisələrlə zəngin, gürcü koloritini incəlikləri ilə göstərən tamaşanın quruluşçu rəssamı Mustafa Mustafayevdir. Rolları Xalq artisti Pərvanə Qurbanova, Əməkdar artistlər Elxan Yunis, Novruz Cəfərov, Sevda Orucova, Ramiz Vəliyev, İlham Hüseynov, Kəmalə Məmmədova və başqaları ifa edirlər.

# "Mənim yerimdə olmaq istəyən var?"

Edama məhkum olunmuş ömrünün son saatlarında bu sualı elə amansız, təsirli verdi ki, ona baxan hər kəs içini çəkərək "çığırtı" ilə "yox!" dedi...

Noyabrın 20-də Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) zalına toplaşanlar bu dəfə məhkumun son həyat akkordlarını izlədilər. 140 yaşını qeyd edən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının təqdimatında. ATXİ-nin Mədəniyyət Nazirliyi ilə birgə həyata keçirdiyi "Qonaq teatr" layihəsinin budəfəki iştirakçısı paytaxta "Edama məhkumun son günü" tamaşası ilə gəlmişdi...

Bir gün dostu ilə Paris küçələrində gəzişərkən meydana toplaşmış izdiham Viktor Hüqonun diqqətini çəkir. Yaxınlaşdıqda bir müttəhimin edam olunduğunu görən yazıçı bu hadisədən çox təsirlənir və dərhal oradan uzaqlaşır. Gördüyü bu sarsıdıcı mənzərə nəticəsində "Edama məhkumun son günü" əsərini qələmə alır. 27 yaşında yazdığı bu romanda Hüqo adsız qəhrəmanın dilindən edam hökmünün bir insana necə təsir etdiyini olduqca mükəmməl təsvir edir.

"Öləcəyini bilən bir insan hansı hissləri keçirə bilər" sualı Hüqo kimi gənc quruluşçu, Naxçıvan teatrının baş rejissoru Mir Qabil Əkbərovu da düşündürür və onu seçkin aktyor üçlüyünün üslub və ifadə üçbucağında, özü də hər birinə ayrı bir təsir və təzim dairəsi cızaraq təqdim edir.

Tamaşanın əsərdən irəli gələn mühüm özəlliklərindən biri, sözsüz ki, təhkiyəsinin birinci şəxsin dilində, daxili monoloq şəklində hərəkətli nəqlidir. Ona görə də minimalist tərtibat və keçidli oyun mərhələləri ilə biz daxilindəki Şeytan, arzularındakı Mələk, qarşısındakı ölüm, xəyalındakı uzun ömür haqqında öz bəraət və üsyankar yalvarışlarında qısa-qısa xəyallar quran Məhkumun zəncirlənmiş hisslərinin bədəndəki əzab işartılarını görürük...





Tamaşada edama məhkum şəxsin son günündəki duyğuları ilə yanaşı, yazılmamış qanunlar, bu cür "qanun"ların fiziki ağrılardan daha çox mənəvi işgəncələrə səbəb olması ön plana çəkilir. Naxçıvan teatrı üçün yeni olan səhnə əsərinə, bu cəsarətli addıma görə heyəti alqışlamaq olar. Çünki illərdir daha çox tarixi dramlar, akademik üslublu tərtibat və musiqili tamaşalar üzərində çalışan kollektivin birdən-birə belə bir üsluba keçidi tamaşaçıların fərqli janr və poetikalara münasibətini ayırd etmək üçün də əhəmiyyətlidir.

Tamaşaya teatra bir neçə ay öncə baş rejissor təyin olunan Mir Qabil Əkbərov quruluş verib. Nümunənin musiqi tərtibatı da ona məxsusdur.

Qaranın hakim olduğu bəyaz arzulu səhnə işinin quruluşçu rəssamı Naxçıvan MR-in Əməkdar rəssamı Səyyad Bayramov, xoreoqrafı Lamiyə Əliyevadır. Rəqs elementləri, xüsusən Məhkumun xəyal dünyasındakı xilaskarlarının, bəzi məqamda onu cəzalandırmağa gələn hakimdən hakimə hər dürlü qılıqlara girən qarabasmalarının rəqsləri maraqlı bir təsəvvür yarada bildi.

Səhnə əsərində rolları Naxçıvan MR-in Əməkdar artisti Səməd Canbaxşiyev, Mehri Nəbiyeva və Məmməd Mehdiyev ifa edirdilər.

Tamaşa boyu biz edamına özözünə etiraz edən gənc atanın qızı ilə görüşmək, onun böyüdüyünü görmək, ölümündən sonra anasının, arvadının əzablarına görə bağışlanmaq və arabir buna ümidlənmək kimi ruh sarsıntılarını S.Canbaxşıyevin təbii və inandırıcı ifadə formasında görürük. O, ölüm hökmünə məhkum olunmuş yoxsul bir atanın edam olunacağı ana qədər yaşadığı iztirabları, keçirdiyi sarsıntıları, xəstə qızı üçün məcbur olduğu çörək oğurluğu və bu zaman bilmədən kiminsə ölümünə səbəb olmasını göz yaşları içində, özünü yerəgöyə "çırparaq" ifadə edir.

Beləcə, edama məhkum olunmuş barışmaz Məhkum gah həbsxana divarları arasından qaçmaq üçün çapalayır, gah hakimlərə hökmün ləğv olunması üçün yalvarır, gah da məktubunun böyük adamlara çatacağı və ədalətin bərqərar olacağına ümidlər bəsləyərək cızmaqaralar edir. Bir anda ovqatı tamam dəyişib xoşbəxtlik arzuları baş qaldıran ata, ər, oğul Məhkum keçmiş xoşbəxt günlərini xatırladıqca ölümü gözləməyin ölməkdən daha ağır və daha dəhşətli olduğunu "yaşamaq ölməkdən daha çətindir" ifadəsində tamamlayır və...

Dünyada ölüm hökmünə etiraz olaraq yazılan və yəqin həm də Hüqonun insanlıq üçün bir də bu yöndən xidməti hesab olunan əsərin naxçıvanlı teatr təmsilçilərinin ifasında təqdimatı tamaşaçılar tərəfindən maraqla qarşılandı.

Nümayişdən sonra ATXİ-nin sədri vəzifəsini icra edən Xalq artisti Hacı İsmayılov səhnəyə qalxaraq qonaq kollektivi salamladı, onları 140 illik yubileyləri münasibətilə təbrik etdi. Uzun və səmərəli yaradıcılıq yolu keçən teatrın milli sənət tariximizdəki rolundan bəhs etdi, heyətə yeni yaradıcılıq uğurları arzuladı.

Sənət ocağının inkişafındakı xidmətlərinə görə və 65 illik yubileyi münasibətilə Əməkdar rəssam Səyyad Bayramova, nümayiş olunan tamaşasının uğurlu quruluşuna görə isə teatrın baş rejissoru Mir Qabil Əkbərova ATXİ-nin fəxri fərmanı təqdim edildi.

Mir Qabil Əkbərov bizimlə söhbətində dedi: "Naxçıvan teatrında istifadə olunmayan sənət axınlarına üz tutmaqda əsas məqsədimiz mövcud truppanı fərqli yöndə formalaşdırmağa, onlarda yeni ifadə formalarına maraq və vərdişlər yaratmaqdır. Biz həm də yeni nəsli səhnəyə cəlb etməkdə maraqlıyıq. Bu prosesi yeni yaranan teatr-studiyası sayəsində irəli aparacağıq. Hazırda Xalq yazıçısı Elçinin "Şekspir" və J.B.Molyerin "Skapenin kələkləri" əsərləri üzərində məşqlər gedir və hər iki nümunə bu ilin sonunadək təqdim olunacaq".

**Həmidə Nizamiqızı**

№86 (2055)
22 noyabr 2023
www.medeniyyet.az

# “Bura mənim evimdir”

## Baba yurdu Cəbrayıla gələn amerikalı Qarabağlı




Sevinirəm ki, babamın vəsiyyətini yerinə yetirib onun doğulduğu torpağa gələ bilmişəm. Yüz il də düşünsəm, ağlıma gəlməzdi ki, bu, gerçək olacaq. Babamın evinin qarşısındayam. Bura mənim evimdir...

Bu sözləri əslən Cəbrayıldan olan, lakin Amerikada doğulub boya-başa çatan, ABŞ vətəndaşı olan Ceyhun Qarabağlı deyir.

Onun baba yurduna – Cəbrayıl rayonunun Süleymanlı kəndinə səfərindən bəhs edən “Bura mənim evimdir” adlı qısametrajlı film (rejissor Nicat Cəlilov, operator İsa İsmayılov, montaj “Sinema Art”) Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sifarişi ilə çəkilib.

Noyabrın 17-də filmin təqdimat mərasimi keçirildi. Mərasimə Dövlət Komitəsinin rəhbər şəxsləri, Milli Məclisin deputatları, dövlət qurumlarının nümayəndələri, ictimai fəallar, məcburi köçkünlər qatılmışdı.

...1921-ci il təvəllüdlü Cavanşir Qarabağlı 2-ci Dünya müharibəsində əsir düşüb. Müharibə ilə bərabər Almaniyadakı əsirlik başa çatandan sonra məlum səbəblərdən vətənə qayıda bilməyib. Tale onu Türkiyəyə, sonra Amerikaya aparıb çıxarıb. Nyu-Cersi ştatında yaşayıb. Azərbaycan diasporunun fəallarından olub.

2005-ci ildə dünyasını dəyişib. İşğal altındakı torpaqlarımızın azad edilməsini görmək, bir gün doğma yurda gəlmək onun da arzusu idi. Doğma rayonu, kəndi haqqında nəvəsi Ceyhuna da çox danışmışdı...

Budur, Ceyhun Qarabağlı babasının arzu-vəsiyyətini yerinə yetirərək onun doğulduğu kənddədir. Otuz ilə yaxın sürən erməni işğalı dövründə kənddəki bütün evlər, hətta qəbiristanlıq belə yerlə-yeksan edilib. Amma o, baba evinin xarabalığında dayanıb “bura mənim evimdir” deyir, Allahına şükür edir ki, bu torpağa ayaq basmaq ona qismət olub.

Filmdə Ceyhun Qarabağlı kəndə səfərindən, gördüyü acı mənzərə qarşısında yaşadığı hisslərdən bəhs edir. İngilis dilində çəkilən (Azərbaycan dilində subtitrlə təqdim edilirdi) film qısa (11-12 dəq.) xronometrajına rəğmən Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı zamanı törədilən dağıntılar, misli görünməmiş vandalizm haqqında dünya ictimaiyyətini məlumatlandırmaq baxımından təqdirəlayiq ekran işidir.

Nümayişdən sonra filmin qəhrəmanı, onun qohumları və çəkiliş qrupu səhnəyə dəvət olundu.

Dövlət Komitəsi sədrinin müşaviri Nəsimi Nərimanov filmin 44 günlük Vətən müharibəsindəki Qələbənin üçüncü ildönümünün qeyd edildiyi bir vaxtda ictimaiyyətə təqdim olunmasını əlamətdar hadisə kimi səciyyələndirdi. İşğaldan azad edilmiş ərazilərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığı vurğulandı. Bildirildi ki, dövlətin diqqət və qayğısı ilə əhatə olunan məcburi köçkünlərin könüllü və ləyaqətlə doğma yurda qayıdışı başlanıb.

Qeyd edildi ki, Ceyhunun səfər təəssüratını filmə çevirmək və bir vətənpərvərlik hekayəsi kimi həm öz cəmiyyətimizə, həm dünya ictimaiyyətinə təqdim etmək ideyası onun Azərbaycana, irsən bağlı olduğu, amma indiyədək görmədiyi doğma kəndinə munis münasibətindən qaynaqlanıb. Bu münasibət bizim bir millət, xalq kimi ən mühüm özəlliyimizdir.

Ceyhun Qarabağlı həyəcan dolu təəssüratını bölüşərək qeyd etdi ki, Amerikada anadan olsa da, ürəyi babasının doğulduğu Cəbrayıl rayonunun Süleymanlı kəndinə bağlı olub. Bu səfər bir fərdin deyil, iki dünya, iki mədəniyyət və iki ev arasında körpünün nümayəndəsinin səfəridir. “Prezident İlham Əliyevin rəhbərliyi ilə ərazilərin işğaldan azad edilməsi mənim kimi uzaqda yaşayan insanların yenidən ata-baba yurduna qovuşmasına imkan verib”, – deyən amerikalı Qarabağlı Azərbaycan torpaqlarının işğaldan azad edilməsi uğrunda canından keçmiş şəhidlərin ruhuna ehtiramını bildirdi, onların ailələrinə və qazilərə təşəkkür etdi.

Tədbirdə Ağdam rayonu Gülablı kənd Uşaq musiqi məktəbinin müəllimi Habil Məmmədovun və yetirmələrinin ifasında ürəyəyatan mahnı çələngi də təqdim olundu.

**V.Orxan**

# “Ağ işığın sehri”

## Şəhid həkim haqqında kitab təqdim olunub

Qəbələ rayon Mədəniyyət Mərkəzində jurnalist-publisist Bibixanım İsayevanın Vətən müharibəsi şəhidi, tibb xidməti leytenantı Aqşin Ənvərliyə həsr olunmuş ”Ağ işığın sehri” kitabının təqdimat mərasimi keçirilib.




Əvvəlcə mərkəzin foyesində şəhidin ömür yolunu əks etdirən sərgiyə baxış olub.

Rayon icra başçısının müavini Ətayə Osmanova çıxışında bütün dünyanın Azərbaycanın şanlı Qələbəsinin şahidi olduğunu vurğulayıb. Digər çıxış edənlər şəhid-həkimin qəhrəmanlığından söz açıb, kitab haqqında təəssüratlarını bölüşüblər.

Sonra şagirdlərin ifasında vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib, Aqşin Ənvərlinin həyat yolunu əks etdirən slayd təqdim olunub.

Şəhidin atası Faiq Abdulayev kitabın müəllifinə və tədbir iştirakçılarına ailə üzvləri adından minnətdarlığını bildirib.

Aqşin Faiq oğlu Ənvərli 1994-cü il oktyabrın 10-da Qəbələ şəhərində anadan olub. Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli, Şuşa və Xocavəndin azadlığı uğrunda döyüşlərdə yaralanan hərbçilərə tibbi yardım edib. Noyabrın 6-da Xocavənd döyüşlərində şəhid olub. Tibb xidməti leytenantı kimi müharibəyə qatılan A.Ənvərli döyüşlər zamanı baş leytenant rütbəsinə layiq görülüb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra “Azərbaycan Bayrağı” ordeni, “Vətən uğrunda” və “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib.

# Zabux kəndi daha 25 ailəyə qucaq açıb

Noyabrın 20-də Laçın rayonunun Zabux kəndinə sakinlərin növbəti köçü olub. Kənd bu dəfə daha 25 ailəyə qucaq açıb. Onlar kəndə gələrkən böyük coşqu ilə qarşılanıb, illərdir həsrətini çəkdikləri Zabuxun möhtəşəm təbiət mənzərəsini seyr ediblər.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin Xüsusi nümayəndəliyinin əməkdaşları tərəfindən ailələrə evlərinin açarları təqdim edilib.

Daha da gözəlləşən və abadlaşan Zabuxa qovuşan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər.

Bununla da kənddə 96 ailənin (382 nəfər) daimi məskunlaşması təmin edilib.

Laçın rayonunun Zabux kəndinə sakinlərin qayıdışı bu ilin avqustunda başlayıb və mərhələlərlə davam edir.

# Qızılağac Milli Parkında “Flaminqo festivalı”

Noyabrın 21-də Qızılağac Milli Parkında (Lənkəran, Masallı və Neftçala rayonlarının ərazisi) ”Flaminqo festivalı” keçirilib.



Festivalda Azərbaycanın qorunan ərazilər şəbəkəsini, iqlim dəyişməsinin biomüxtəlifliyə təsiri və bioloji müxtəlifliyin hazırki vəziyyətini əks etdirən stendlər, məlumat lövhələri, milli parkların təbiətinə, flora və faunasına aid tanışlıq guşələri, suvenirlər nümayiş olunub.

Tədbirə dövlət, qeyri-hökumət təşkilatları, universitet və beynəlxalq təşkilatların nümayəndələri, eləcə də turistlər qatılıb. İştirakçılar park ərazisində qayıq və kvadrasiklə gəzib, körfəz ərazisində quş koloniyalarını müşahidə ediblər.

Qızılağac Milli Parkının körfəz ərazisinə çəkikimi balıq körpələri, təbiətə milli parkın faunasına xas olan turac quşları buraxılıb.

# Qalib ölkənin xoşbəxt uşaqları

Bölgələrdə 20 oktyabr – 20 noyabr tarixlərini əhatə edən ”Uşaq hüquqları aylığı” ilə bağlı bir sıra tədbirlər keçirilib. Aksiya BMT-nin Uşaq hüquqları Konvensiyasının (20 noyabr 1989-cu il) qəbul olunmasının ildönümü və 20 noyabr – Dünya Uşaqlar Günü ərəfəsində uşaqlara diqqətin daha da artırılması məqsədi daşıyır.






Qazax rayon M.P.Vaqif və M.V.Vidadinin Xatirə Muzeyində “Dünyamızın bəzəyi uşaqlar” adlı dəyirmi masa təşkil edilib. Tədbirdə dövlət uşaq siyasətinin həyata keçirilməsi və uşaqların hüquqlarının müdafiəsi ətrafında fikir mübadiləsi aparılıb.

Ağstafa rayon Mədəniyyət Mərkəzində “Uşaq hüquqları aylığı” çərçivəsində tədbir keçirilib. Azyaşlı uşaqların və valideynlərin iştirak etdiyi tədbirdə uşaq hüquqlarının müdafiəsi ilə bağlı geniş məlumat verilib, bu sahədə onların maarifləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərdən bəhs olunub. Daha sonra Milli Qəhrəman Mübariz İbrahimova həsr edilmiş animasiya filmi nümayiş etdirilib. “Virtual Qarabağ” İKT Gənclər İctimai Birliyi tərəfindən istehsal olunan film uşaqların və yeniyetmələrin vətənpərvər ruhda tərbiyəsinə xidmət edir.






***

Cəbrayıl rayon Xələfli, Çərəkən, Qalacıq, Karxulu, Qovşudlu, Qaracallı kənd klubları, rayon MKS-nin İsaxlı və Tatar kənd kitabxana filiallarının birgə təşkilatçılığı ilə “Biz də varıq!” adlı tədbir keçirilib. Bildirilib ki, cəmiyyətin həssas təbəqəsi olan uşaqların müdafiəsi ölkəmizdə daim diqqət mərkəzindədir. Onların inkişafı və hüquqlarının qorunmasında, vətənpərvərlik, milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunmasında, layiqli vətəndaş kimi formalaşmasında dövlətlə yanaşı, cəmiyyətin hər bir üzvü məsuliyyət daşıyır.

***

Zaqatala rayon Heydər Əliyev Mərkəzində “Qəhrəman yurdun xoşbəxt uşaqları” adlı bayram şənliyi keçirilib. Əvvəlcə Ulu öndərin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Bayram şənliyinin iştirakçıları “Xoşbəxt uşaqlar” mahnısının sədaları altında zala daxil olublar. Dövlət Himninin oxunmasından sonra uşaqlara aid videoçarx nümayiş etdirilib. Çıxışlarda ölkəmizdə uşaqların müdafiəsinin, onların hüquq və azadlıqlarının təmin edilməsinin, rifahının yaxşılaşdırılmasının dövlət siyasətinin başlıca istiqamətlərindən birini təşkil etdiyi vurğulanıb. Bayram şənliyi rayonun məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə alan istedadlı uşaqların çıxışları ilə davam edib.

***

Astara rayon Heydər Əliyev Mərkəzində “Uşaqların zərərli informasiyadan qorunması” mövzusunda tədbir keçirilib. Çıxışlarda uşaqların internet-informasiya təhlükəsizliyinin təmin olunması, internet resurslarının müsbət və mənfi cəhətləri, eləcə də bu istiqamətdə Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər haqqında ətraflı məlumat verilib.

Cəlilabad Dövlət Rəsm Qalereyası, rayon Mədəniyyət Mərkəzi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə “Hüquqlarımızı bilək” adlı tədbir keçirilib. Qeyd olunub ki, uşaq hüquqları dedikdə, uşaqların təhsil almaq, oynamaq və istirahət etmək, məlumat almaq və dini hüquqları nəzərdə tutulur. Müdafiə hüquqları isə uşaqları müxtəlif zorakılıq, müharibələr və uşaq əməyinin istismarından, narkotik maddələrin istifadəsindən qoruyur. Sonda “Yaşasın hüquqlarımız!” adlı film nümayiş olunub.

# Tariximizin şanlı səhifəsi



Milli Dirçəliş Günü (17 noyabr) münasibətilə yerlərdə müxtəlif səpkili tədbirlər təşkil edilib.

Qax rayon Heydər Əliyev Mərkəzi rayon Gənclər və idman sektoru ilə birgə “Ulu öndər Heydər Əliyevin milli dövlətçiliyimizin dirçəlişi istiqamətində atdığı addımlar” başlığı altında tədbir keçirib. Tədbirdə əlamətdar günün tarixi haqqında məlumat verilib. Sonra “Dirçəliş ideologiyası” adlı film nümayiş etdirilib.

***

Qazax şəhər 1 nömrəli Uşaq musiqi məktəbində “Azadlıq uğrunda mübarizə” adlı tədbir təşkil edilib. Çıxışlarda 1988-ci ilin noyabr hadisələrinin tarixi əhəmiyyətindən, dövlət müstəqilliyinin bərpa olunmasından, Ümummilli lider Heydər Əliyevin müstəqilliyimizin qorunması və möhkəmləndirilməsində misilsiz xidmətlərindən, ölkəmizin sürətli inkişafından bəhs edilib.

Tovuz rayon aşıq Əsəd Rzayev adına Uşaq musiqi məktəbində “Birliyimizin sübutu günü” adlı tədbir keçirilib. Bildirilib ki, 1988-ci ilin noyabrında yüz minlərlə soydaşımız Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına, Qarabağda törətdiyi təxribatlara və Sovet İttifaqı rəhbərliyinin bu məsələdəki ikili siyasətinə etiraz olaraq Bakıda, indiki Azadlıq meydanına toplaşıb. Kütləvi aksiyalar dekabrın 4-dək davam edib və milli azadlıq hərəkatına çevrilib. 1992-ci ildən 17 noyabr tarixi ölkəmizdə Milli Dirçəliş Günü kimi qeyd edilir.

Ağstafa Dövlət Rəsm Qalereyasında “Milli Dirçəliş Günü” başlıqlı tədbirdə rəsm dərnəyi üzvlərinin əl işlərindən ibarət sərgi nümayiş olunub.

Gədəbəy rayon Heydər Əliyev Mərkəzində “Milli tariximizin şanlı səhifəsi” adlı tədbir keçirilib. Çıxışlarda əlamətdar günün əhəmiyyəti haqqında fikirlər səsləndirilib.

Regional idarənin tabeliyindəki digər mədəniyyət müəssisələrində də Milli Dirçəliş Günü ilə bağlı tədbirlər təşkil olunub.

***



Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Quba rayon MKS-nin Mərkəzi Kitabxanası tərəfindən oxu zalında “Tarixin ən güclü Azərbaycanı” adlı tədbir keçirilib. Qeyd olunub ki, xalqımız artıq üçüncü ildir ki, Milli Dirçəliş Gününü qürurla qeyd edir. Bu günün qeyd olunması bütün Azərbaycan xalqının mənəvi haqqıdır. Tədbirin sonunda mövzu ilə əlaqədar videoçarx nümayiş etdirilib, “17 Noyabr Milli Dirçəliş Günüdür” adlı kitab sərgisinə baxış olub.

***

Lənkəran şəhər Heydər Əliyev Mərkəzində Lənkəran Şahmat Məktəbi ilə birgə Milli Dirçəliş Günü münasibətilə məktəblilər arasında “Qurtuluşa gedən yol” adlı şahmat turniri keçirilib.



Turnirin məqsədi məktəblilər arasında vətənpərvərlik və milli qəhrəmanlıq ruhunun aşılanması, sağlam həyat tərzinin, əzmkarlığın təbliğ edilməsidir.

Turnirdə Lənkəran şəhər R.Məmmədov adına 5 saylı tam orta məktəbin şagirdi Ülvi Əzizov I, H.Aslanov adına 3 saylı tam orta məktəbin şagirdi Ələşrəf Nemətli II, Q.Zeynalov adına Darquba kənd tam orta məktəbinin şagirdi Fuad Əbilzadə isə III yerə layiq görülüb. Qaliblər Heydər Əliyev Mərkəzinin diplomları ilə mükafatlandırılıb.

***

Cəbrayıl rayon Mədəniyyət evinin təşkilatçılığı ilə Fuğanlı kənd klubunda “Ayağa dur, Azərbaycan!” adlı tədbir keçirilib. Qeyd olunub ki, Milli Dirçəliş Günü Azərbaycanın müstəqilliyinin bərpasında mühüm hadisədir. Ölkəmiz müstəqilliyinin ilk illərində bir çox çətinliklərlə üzləşsə də, Ümummilli lider Heydər Əliyevin siyasi rəhbərliyə qayıdışı ilə, onun müdrikliyi, dövlətçilik təfəkkürü sayəsində gənc respublikamız tarix səhnəsindən silinmək təhlükəsindən qurtulub, davamlı inkişaf yoluna çıxıb.

Sonra mədəniyyət işçilərinin ifasında musiqilər səsləndirilib, məktəblilər tərəfindən şeirlər və kompozisiyalar təqdim edilib.

**Hazırladı: N.Məmmədli**

# Filarmoniyada Eldar Mansurovun yaradıcılıq gecəsi

## Bəstəkarın simfonik musiqiləri səslənib

Noyabrın 17-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Xalq artisti, bəstəkar Eldar Mansurovun yaradıcılıq gecəsi keçirilib.





Filarmoniyadan bildirilib ki, gecədə Əməkdar artisti Fuad İbrahimovun dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Azərbaycan Dövlət Xor Kapellası (bədii rəhbər Xalq artisti Gülbacı İmanova) və solistlər – Əməkdar artistlər Ramil Qasımov (tenor) və Nərgiz Kərimova (soprano) bəstəkarın əsərlərini dinləyicilərə təqdim ediblər.

Eldar Mansurov "Kleopatra" və "Olimp" rok-baletləri, beş simfoniya, "Mahur-hindi" simfonik muğamı, skripka və simfonik orkestr üçün konsert, bir çox simfonik, kamera və xor əsərlərinin müəllifidir. Bir sıra filmlərə və tamaşalara musiqilər bəstələyib, yüzlərlə mahnı və instrumental musiqinin müəllifidir.

Filarmoniyadakı yaradıcılıq gecəsində bəstəkarın əsasən simfonik musiqiləri səslənib.



# Ögey-doğmalıq salan Füzulidir?

## Yaxud Samir Qulamovun "Axillesliyi"

Əvvəla, ondan başlayaq ki, uzun illərdir opera səhnəmizdə şahlıq edən bir muğam operasını yeni quruluş və libretto ilə səhnəyə qoymaq cəsarət, hətta deyərdim, dəli ürək istəyir. Yox, bu, yaxşı dəlilikdir. Məcnunun Leylinin dərdindən dəli olması qədər olmasa da.

Gələk əsas məsələyə. Mövzusu demək olar ki, hər kəsə bəlli eşq rəvayətini əsrlərdir ürəklərə daşıyan Məhəmməd Füzulinin "Leyli və Məcnun" poeması, bir az da ondan öncə bu rəvayətə bambaşqa bir ülviyyət bəxş edən Nizami Gəncəvidən seçmələr də əlavə olunmaqla Akademik Musiqili Teatrın səhnəsində özünə yeni yaşam vəsiqəsi qazanan növcavan "Leyli və Məcnun"a.

Tamaşanın məşqindən əsas partiya ifaçılarından dublyorlarına bütün heyətinin oyununa bir neçə dəfə baxmışam.

Məncə, söhbətə məşqdən ayaq vermək üçün dabanından vurulan Axillesi də yada salaq. Niyəsini soruşsanız, hələ məşq zamanı boynuna saldığı dəsmalları təri ilə isladıb, çapar kimi akademik teatrın səhnəsindən-parterinə az qala 40 dəfə dövrə vurub, özü qarışıq hamımızın başını gicəlləndirən rejissor Samiq Qulamov, ondan fərqli olaraq sükunətini daim qoruyan rəssam Vüsal Rəhim və xor truppasına narahat-narahat göz-qaş edən Vaqif Məstanovun iş birliyi mənim ümid "planımı" doldurmuşdu. Hərçənd gərgin və bir az truppasından narazı rejissoru nə onda, nə də indi anlamaq çətindir. Çünki istənilən əsər seçimindən öncə onu oynayacaq truppa gözdən keçirilir və peşəkar komanda bunu məndən də əla bilir. Bu, öz yerində.

Qədim yunan əsatir qəhrəmanı ilə müqayisə kiməsə uğursuz görünsə də, hər halda, prosesin içində olan ariflər eyhamı anlayar. Axı Axilles həm də məğlubedilməz, cəsarətli idi. Atılan oxların heç biri ona zərər vurmazdı. Ta ki...

Son illər, xüsusən "komediya" teatrı olmaqdan imtina edəndən fərqli eksperimentlərlə sənət aləminə cəsarətli rəngarənglik qatmağa çalışan yaradıcı kollektivin bu cəhdi də maraqlıdır.

Klassik nümunədən fərqli olaraq biz burada aşiqləri yaradan və "öldürən" Məhəmməd Füzulini (arabir N.Gəncəvidən qəzəlləri də səhnədəki Füzulinin ifasında gözardı etmirəm), Leyli və Məcnunun ruhlarını və digər yeni obrazları görürük.

Tamaşanın quruluş heyətində yuxarıda qeyd etdiyim quruluşçu rejissor, rəssam və xormeysterdən savayı quruluşçu dirijor Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev və quruluşçu baletmeyster Əməkdar artist Emin Əliyev də var. Xalq artisti Səkinə İsmayılova muğam üzrə məsləhətçi kimi səhnə əsərinin hazırlanmasında iştirak edib. Solo tar ifaçısı Əməkdar artist Elxan Mansurov, konsertmeyster Fidan Əliyevadır. Rejissor assistentləri Əmrah Dadaşov və Sevinc Məmmədovadır.

Əsas rolları muğam müsabiqələrinin qalibləri İlahə Rüstəmova (Leyli) və Orxan Hüseynli (Məcnun), Məcnunun anası rolunu Bacıxanım Sadıqova (dəvətli) ifa edirdilər.





Qalan rollar teatrın truppasının aktyorlarına həvalə olunmuşdu: Gülnarə Abdullayeva (Leylinin anası), Əməkdar artist Nadir Xasıyev (Leylinin atası), Əmrah Dadaşov (Məhəmməd Füzuli), Emin Zeynallı (İbn Salam), Böyükxanım Məmmədova, Mirzəhra Muradova, Aydan Əliyeva (Leylinin bacıları), Əli Kərimov və Murad Əliyev (İbn Salamın döyüşçüləri).

Quruluşçu baletmeysteri Emin Əliyev həm də səhnədə Məcnunun, balet ifaçısı İranə Kərimova isə Leylinin ruhu obrazları ilə çıxış edirdilər.

Hələ məşq zamanı tamaşasının pitçinqini (müdafiəsini) edən rejissor öz arqumentini belə əsaslandırmışdı: "Mən belə başa düşürəm ki, əsərdə Füzuli üçün saf sevgidən də önəmli nələrsə var. Bu qadına qarşı zorakılıqdır, erkən nikahdır ki, atası Leylini 15 yaşında İbn Salama ərə vermək istəyir. Bu əsərdə Füzuli sanki cəmiyyətə etiraz edir. Mən fikrimi bu etiraza yönəltmək istədim. Məhəmməd Füzulinin ruh halını göstərmək istədim ki, o əsəri yazanda nəyi qabarıq göstərmək istəyib? Mənə elə gəlir ki, iki gəncin sevgisi, onların ülvi hissləri mövzusu sanki Füzuli üçün bir bəhanə olub bu əsəri yazmaqda. Bu gün də erkən nikahları, qız övladlarını təhsildən yayındıran valideynləri görürük. Biz də sevgi ilə bərabər həm də hazırladığımız tamaşada bu mesajları cəmiyyətə vermək istəyirik...".

Haqlıdır, istədiyini edib. Amma onun aşiqləri səhnədə eşqdən yorulmuş, tükənmiş, eşqi çoxdan bitirib, közərən od ilə oynayan (səs, ifa, oyun texnikaları öz yerində olsa da) görkəmdə idilər.

Yəqin məsələnin mahiyyətinə ictimai-sosial kultdan baxmaq məqamını önə çəkən rejissor mahiyyətdəki yeniyetmə eşqindəki qığılcımı tez alışıb-sönməklə əvəz edib.

Bu sözləri iki aşiqin ruhunu canlandıran hər iki balet artistinə, onların rəqs, xoreoqrafiya elementlərində (xüsusən qadın ifaçının monoton, yorğun, həvəssiz) ifalarına da şamil etmək olar. Hərçənd Emin Əliyev Məcnunun emosiya, itki və divanəlik məqamında daxili səsini (ruhunu) "eşitdiyi" diapazonda çatdırmağa çalışdı.

İxtisar olunan obrazı – Məcnunun atasının da yükünü özü daşıyıb, hamımızı bu eşqin girdabına salan Məhəmməd Füzuli obrazı (Əmrah Dadaşov) mahiyyət etibarilə gah ata, gah aşiq, gah fani, gah da əbədi çağırışları ilə diqqəti üzərinə çəkməyə çalışdı.

Məncə, rejissor baş qəhrəmanların yükünü azaltmaq, yaxud da, əksinə – yeni obrazına daha çox vurğu vurub, ədəbi əsasını parlaq nümunəyə çevirmək üçün Füzuli üzərində daha çox dayanmışdı. Amma kaş onun bir küncdə əyləşməyi, arabir aşiqləri məzəmməti, qınaq sınağına çəkməyi olmayaydı. Bu heyhata Tolstoyun "Anna Karenina öldü" deyib hönkürtü ilə ağlamasını yada salan, "Leyli öldü" deyərək səhnənin ortasında hayqıran Füzulinin dramatik epizod səhnəsini də qataraq, acizanə təəssüf edirəm.

Bundan öncə baxımlı, dramatik aktrisa kimi kəşf etdiyimiz Gülnarə Abdullayeva tamaşada obrazın mahiyyətini, ananın narahatlıq və sevgisini, qayğı və qorxusunu ustalıqla paylaşdırıb bütün səhnələrində diqqəti özünə çəkə bildi. Bu sözləri arabir ariya oxuyurmuş ovqatına köklənib, ifasındakı cilovu əlindən verməsinə rəğmən, ümumi planda yaxşı oyun təsiri bağışlayan Nadir Xasıyevə (Leylinin atası) də aid edə bilərik.

E.Zeynallının İbn Salamı inamsız, təsirsiz, onu sevməyən, inkar edib ilahi eşqə çatan Leylisinə qarşı soyuqqanlı təsir bağışladı. Doğrudur, bu dəfə rejissor bizə İbn Salamı daha çox aşiq, bütün hikkə və intiqam, ehtiras və inanclarından arınmış – özlüyündə böyük eşq girdabında çarmıxa çəkilmiş kimi göstərir. Sözsüz ki, quruluş müəllifinin aşiq olduğu qadının sevgisinə ehtiram göstərən ali hissləri təqdim etmək istəyi bu traktovkada anlaşılandır. Amma aktyor, çox güman ki, rejissorun ondan nə istədiyini tam duya bilməyib.

...Tamaşanın quruluşçu rəssamı ənənəvi üslubuna sadiq qalaraq dəbdəbəli geyim, bəzək, zinət əşyalarına meyil etmişdi. Səhnə tərtibatında hakim rəng qırmızı idi. Bu rəng od, alov, ehtiras, eşq və eşqdən yananların qovrulduğu atəşi andırmaq üçün seçilmişdi. Ən çox alqışı haqq edən məqam bir səhnədə baş verən hadisələrdə keçidlərin yaxşı həlli idi. Zaman-zaman ştangetlərdən enən eşq günəşi və ondan doğan (paralanmış günəşin içindən çıxış) aşiqlər, səhradakı çadır, üzərinə tül sərilmiş məzarlar və ən sonda günəşə, işığa, sonsuz vüsala aparan pilləkən yaxşı və sadə həllə işarə idi.

Bu tamaşa – Samir Qulamovun akademik səhnə üçün yeni və cəsarətli cəhdi haqqında daha uzun rəy yazmaq, daha dərin analiz aparmaq və daha təfsilatlı fikirlər səsləndirmək olardı. Sadəcə, milli opera, musiqi sənətimiz, dahi Üzeyir bəyin milli kultumuza, sənət göstəricimizə çevrilib, bir növ nəbzimizi müəyyən edən əsəri – şah musiqi ladları adamı yalnız ona kökləyir. Bu arada V.Məstanovun əməyini yerə vurmayan xor, eləcə də balet artistləri, həmçinin orkestr solistlərlə həmahəng oyununu da qeyd etmək gərəkdir.

Ümumiyyətlə, dramatik hadisəni, faciənin mahiyyətini ifadə üçün bütün üsullar bir vasitə kimi istifadə olunarsa məqbuldur. Bu barədə Aydın Talıbzadə "Faciə: janriçi mutasiyalar" kitabında maraqlı bir təyin də verir. Onun fikrincə, "Bizim düşüncəmiz gerçəkliyin modifikasiya olunmuş virtual obrazını yaradır və başlayır orada yaşamağa, daha doğrusu, öz qavrayışını həqiqət bilib ona inanmağa. Gerçəklik bizim qavrayışımızda teatrallaşır. Odur ki, müasir insan virtuallığı bu qədər özünə doğma sayır. Bu onun aldanışıdır: xilası və məhvidir. Düşüncə çaşanda dəlilik olur və dəlilik toplumu faciəyə sürükləyir. Ona görə faciə çağdaş rejissor üçün təkcə tamaşa qurmaq, peşəkarlığını əyarlamaq bəhanəsi və ya vasitəsi deyil, beyin əməliyyatıdır, düşüncə tərzidir, qavrayış üslubudur".

Qısacası, istənilən cəhd, elə S.Qulamovun "Leyli və Məcnun"u rejissor tərcümeyi-halı üçün "dəb"dəbədən daha çox, özünün və heyətinin yaradıcılıq tələbatını ödəməsi üçün vasitəsidir. Şəxsən mən sidq-ürəklə buna inanıram...

**Həmidə Nizamiqızı**

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (79)

### 1998-ci il 15 may

Prezident Heydər Əliyev Rusiyanın məşhur rəssamı Nikas Safronovun R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində keçirilən sərgisinin açılışında nitq söyləyib.

*"...Uzaq keçmişdə Azərbaycanın təsviri sənəti öz ifadəsini milli sənətdə, miniatür sənətində tapmışdır. Biz fəxr edirik ki, bizim Sultan Məhəmməd kimi dahi rəssamımız var. O, beş yüz il bundan əvvəl misilsiz miniatür sənəti əsərləri yaratmışdır. Lakin, bununla bərabər, biz şadıq ki, Azərbaycan rəssamları Avropa rəngkarlıq məktəbinə də yaxınlaşmışlar. XX əsrdə Azərbaycanda belə güclü rəngkarlıq əmələ gəlmişdir və rəngkarlarımızın əsərləri nəinki Azərbaycan muzeylərini bəzəyir, eləcə də Azərbaycan incəsənətini dünyada layiqincə təmsil edir. Bütün bunlarda Rusiya rəngkarlığının göstərdiyi təsirin böyük əhəmiyyəti var. Mən şübhə etmirəm ki, Nikas Safronov Azərbaycanda, Bakıda bu sərgisi ilə öz məşhurluğunun səviyyəsini daha da qaldıracaqdır. Bu imkandan istifadə edərək mənim portretimi çəkdiyinizə görə də sizə təşəkkür edirəm...".*

### 1998-ci il 17 may

Xalq rəssamı Tahir Salahovu qəbul edib.

### 1998-ci il 21 may

Yazıçılar Birliyinin nümayəndə heyətini qəbul edib.

### 1998-ci il 22 may

Respublika Sarayında Xalq artistləri Fidan və Xuraman Qasımova bacılarının konsertinə tamaşa edib.

### 1998-ci il 23 may

Bir qrup ədəbiyyat xadiminə "Xalq yazıçısı" və "Xalq şairi" fəxri adlarının verilməsi haqqında fərman imzalayıb. Xalq yazıçısı adı alanlar: Anar, Maqsud İbrahimbəyov, Rüstəm İbrahimbəyov, Elçin, Hüseyn İbrahimov, Yusif Səmədoğlu, Əkrəm Əylisli (2013-cü ildə fəxri addan məhrum edilib).

Xalq şairi adı alanlar: Hökümə Billuri, Fikrət Qoca, Söhrab Tahiri.

### 1998-ci il 24 may

Prezident Sarayında "İmperiya Rus Baleti" ansamblının bədii rəhbəri, əfsanəvi balerina Mayya Plisetskaya ilə görüşüb.

*"...Həmişə istəyirdim ki, siz Azərbaycanda çıxış edəsiniz, lakin bu, hətta SSRİ-də yaşadığımız vaxtlarda da mümkün olmurdu. İndi, biz müxtəlif dövlətlərdə yaşadığımız bir vaxtda siz Bakıya gəlmisiniz. Mən bunu çox yüksək qiymətləndirir və sizə təşəkkür edirəm... Bizdə yaxşı balerinalar çoxdur. Onların arasında Qəmər Almaszadə, Leyla Vəkilova, Rəfiqə Axundova, Tamilla Şirəliyeva, Çimnaz Babayeva və başqaları var. Lakin çox istərdim ki, balet sənətinə imkan daxilində daha çox istedadlı adamlar yiyələnsin, yeni adlar meydana çıxsın... Buna görə də 70-ci illərin ortalarında Bakıda balet məktəbi kompleksi tikdirdim. İndi, respublikaya yenidən rəhbərlik etdiyim vaxtda Azərbaycan baleti yenidən dirçəlməkdədir...".*

"İmperiya Rus Baleti" ansamblının Respublika Sarayında keçirilən konsertindən sonra Mayya Plisetskaya və ansamblın yaradıcı kollektivi ilə bir daha görüşüb, təqdim olunan gözəl proqrama görə təşəkkürünü bildirib.

### 1998-ci il 26 may

Prezident iqamətgahında ədəbiyyat, mədəniyyət, incəsənət xadimlərinin bir qrupuna "İstiqlal" ordeninin təqdimetmə mərasimində nitq söyləyib.

*"...Biz Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 80 illik yubileyini bayram edirik... Azərbaycan müstəqil bir dövlət kimi öz atributlarını yaradıbdır. Dövlət atributlarından biri də müstəqil Azərbaycanın dövlət mükafatlarıdır... Azərbaycanın bir neçə ordeni vardır. Onlardan ən yüksəyi Azərbaycanın "İstiqlal" ordenidir.*

*Azərbaycanın istiqlaliyyəti uğrunda mübarizələr müxtəlif yollarla gedibdir. Ancaq Azərbaycanın milli azadlığı, istiqlaliyyəti yolunda ən çox bizim ədəbiyyatımız, mədəniyyətimiz, incəsənətimiz xidmətlər göstəribdir. Çünki əgər biz 70 illik totalitar rejim çərçivəsində milli ədəbiyyatımızı, mədəniyyətimizi, dilimizi, adət-ənənələrimizi qoruyub saxlaya bilmişiksə, hesab edirəm, bunlar böyük nailiyyətlərdir. Millət birinci növbədə bu amillərə görə millətliyini təsdiq edir, millət olur və millət kimi tanınır... Məhz buna görə də təsadüfi deyil ki, "İstiqlal" ordeni ilə ilk təltif olunanlar xalqımızın yazıçıları, şairləri, mədəniyyət, incəsənət xadimləridir...".*

***

Mərasimdən sonra Səhiyyə Nazirliyinin Mərkəzi Klinik Xəstəxanasına gələrək burada müalicə olunan bəstəkar Tofiq Quliyevə "İstiqlal" ordenini təqdim edib.

Xəstəxanada müalicə olunan Xalq yazıçısı Yusif Səmədoğlu ilə də hal-əhval tutub, onu Xalq yazıçısı adı almağı münasibətilə təbrik edib. Xəstəxanaya gəlmiş bir qrup ədəbiyyat və incəsənət xadimləri ilə də söhbət edib.

### 1998-ci il 27 may

Respublika Sarayında Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitq söyləyib. Cümhuriyyətin görkəmli xadimlərinin qohumları ilə görüşüb.

### 1998-ci il 1 iyun

"Qönçə-98" uşaq musiqi festivalı qaliblərinin yekun konsertində çıxış edib.

### 1998-ci il 11 iyun

Şair Mikayıl Müşfiqin 90 illik yubileyi haqqında sərəncam imzalayıb.

Xalq yazıçısı İsa Hüseynovu 70 illik yubileyi, Xalq artisti Hacıbaba Bağırovu 65 illiyi münasibətilə təbrik edib.

### 1998-ci il 13 iyun

Görkəmli musiqiçi Mstislav Rostropoviçə "Şöhrət" ordeninin təqdim olunması mərasimində nitq söyləyib. Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasında Mstislav Rostropoviçin konsertinə tamaşa edib.

### 1998-ci il 14 iyun

Görkəmli səhnə ustası və pedaqoq Xalq artisti Mehdi Məmmədovun 80 illik yubileyi ilə əlaqədar sərəncam imzalayıb.

Xalq artisti, bəstəkar Hacı Xanməmmədovu 80 illik yubileyi münasibətilə təbrik edib.

**Hazırladı: V.Orxan**

*(davamı var)*

№86 (2055)
22 noyabr 2023
www.medeniyyet.az

Rasim Ocaqov – 90

# Kinomuza yeni nəfəs gətirən sənətkar



Rasim Ocaqov Azərbaycanın kino salnaməsinə ideya-sənətkarlıq baxımından yüksək dəyərləndirilən və tamaşaçılar tərəfindən maraqla qarşılanan ekran əsərləri bəxş edib. Bu il görkəmli kino xadiminin anadan olmasının 90 illiyidir.

Rasim Mirqasım oğlu Ocaqov 22 noyabr 1933-cü ildə Şəkidə anadan olub. 1951-ci ildə Moskva Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Kinooperatorluq fakültəsinə qəbul olunur. Burada B.Qolovnya və L.Kosmatov kimi sənətkarlardan sənətin sirlərini öyrənir. Kinooperator ixtisası üzrə təhsilini 1956-cı ildə başa vurur və Bakıya qayıdır. Azərbaycan Dövlət İncəsənət İnstitutunun Rejissorluq fakültəsində də təhsil alır.

1956-cı ildən "Azərbaycanfilm" kinostudiyasında quruluşçu-operator kimi çalışmağa başlayır. İlk dəfə operator olaraq "Bir məhəllədən iki nəfər" filmini lentə alır. 1958-ci ildə "Onun böyük ürəyi" filmi quruluşçu operator kimi sərbəst işi olur. Sumqayıt metallurqlarının həyatından bəhs edən filmdə bu ağır peşə sahibləri operatorun kamerası ilə romantik və cəzbedici bir formada təqdim olunur. Filmdə insanların odpüskürən soba qarşısındakı gərgin anları, geniş və orta planlardakı vəziyyətləri çox ustalıqla yaradılıb. Rasim Ocaqov həm də burada özünü psixoloji anların ustası kimi təsdiq edib.

R.Ocaqovun 1973-cü ildən quruluşçu rejissor kimi böyük sənətkarlıqla ərsəyə gətirdiyi müxtəlif janrlı filmlər ("Qatır Məmməd", "Tütək səsi", "İstintaq", "Ölsəm, bağışla", "Təhminə", "Həm ziyarət, həm ticarət" və s.) kino salnaməmizdə xüsusi yer tutur.

Rejissor kimi ilk işi yarımçıq qalmış "Gəncəbasarlı qisasçı" ("Qatır Məmməd") filmini tamamlamaq olub. Bu tarixi-qəhrəmanlıq janrında çəkilən filmin ssenarisini yenidən işləyir. Qatır Məmmədin obrazını isə görkəmli aktyor Şahmar Ələkbərova tapşırır...

R.Ocaqovun rejissor kimi ikinci işi "Tütək səsi" (1975) filmidir. Filmdə II Dünya müharibəsi illərində arxa cəbhədəki insanların maddi və mənəvi durumları çox inandırıcı şəkildə verilib. Film öz orijinal səhnələri, çəkiliş manerası və mövzunun bədii həlli baxımından Azərbaycan kinosunda yenilik idi.

Araşdırmalarda qeyd edilir ki, R.Ocaqov dramaturgiyanın bədii məziyyətlərini personajların xarakterlərində cəmləşdirərək əks etdirib. Rejissoru olduğu "İstintaq", "Ad günü", "Təhminə" və s. filmlərdə natura və pavilyonda müxtəlif dekorasiya çəkilişlərindən ustalıqla istifadə olunub.

Xalq artisti Rasim Balayev müsahibələrinin birində görkəmli sənətkarı xatırlayarkən deyib: "Rasim Ocaqov Azərbaycanın ən görkəmli rejissorlarından biridir. O, milli kino tarixində öz dəstxətti olan, yaratdığı əsərlərlə Azərbaycan tamaşaçısının qəlbində yaşayan sənətkardır. Həm də çox ciddi, intizamlı və ədalətli adam idi. Azərbaycanın bir neçə ustad sənətkarları olub, mən deyərdim ki, onların içərisində əsil vətəndaş sənətkarlardan biri də R.Ocaqov idi. Xoşbəxtəm ki, 4 filmində çəkilmişəm. Rollarımın bəzisi əsas, bəzisi isə epizodik rollar olub. R.Ocaqov kinonu dərindən bilən və sevən bir sənətkar idi...".

Yaradıcılıq fəaliyyəti yüksək qiymətləndirilən sənətkar 1967-ci ildə Azərbaycan SSR-in "Əməkdar incəsənət xadimi", 1982-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülüb. 1980-ci ildə Azərbaycan SSR-in, 1981-ci ildə isə SSRİ Dövlət mükafatları ilə təltif olunub. Müstəqillik illərində də R.Ocaqovun milli kinematoqrafiyanın inkişafındakı xidmətləri layiqincə qiymətləndirilib, 1998-ci ildə "Şöhrət" ordeni və 2002-ci ildə Prezidentin fərdi təqaüdü ilə mükafatlandırılıb.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı tərəfindən R.Ocaqov adına fəxri tələbə təqaüdü (2017) və medal (2019) təsis edilib.

Görkəmli sənətkar ömrünün müdrik çağlarında "Günəşin kələfi" adlı film çəkmək istəyib. Hətta filmin ssenarisi də hazır olub. Ancaq əcəl onun bu istəyini reallaşdırmağa imkan verməyib. 12 iyul 2006-cı ildə, 73 yaşında vəfat edib.

**S.Fərəcov**

Azərbaycan teatrı – 150

# TEATR BİNALARI:
## memarlığımızın "simurq quşu"

II yazı



*"Bu möhtərəm şəxsin fəaliyyəti insanları həqiqət işığına aparır! Maraqlıdır yəqin ki, Badukübədə Tağıyevdən daha zəngin və savadlı adamlar olsa da, burada ilk teatr binasını tikdirən hörmətli Hacı olub. Badukübənin ziyalı gəncləri bu teatrda ildə bir neçə dəfə türk dilində komediya tamaşasına baxmaq imkanı əldə edirlər. Kirayə haqqı axşam üçün yüz rubl olsa da, hörmətli Hacı tez-tez nəinki götürmür, həm də xeyriyyə məqsədləri üçün əlavə töhfələr verir. 1900-cü ildə teatrın yenidən qurulması üçün yüz minə yaxın pul bağışladı, teatr kiçik olsa da, qeyri-adi dərəcədə gözəldi...".*

Bu sətirlər Nəriman Nərimanovun Hacı Zeynalabdin Tağıyevin yubileyi münasibətilə qələmə aldığı "Hacı Zeynalabdin Tağıyevin əlli illiyi və xalq qarşısındakı xidmətləri" kitabındandır. Kitab 1900-cü ildə çap olunub. Təbii ki, həmin kitabda Tağıyev şəxsiyyətinin digər cəhətlərindən də yazılıb, onun Vətən, xalq qarşısındakı xidmətləri barədə geniş məlumat verilib. Amma gerçəkdən də teatr binası tikmək böyük hünərdir.

### Zaman o zaman idi ki…

…1880-ci illərin neft bumu yaşayan Bakını təsəvvür edin. Təəssüf ki, dövrün fotoxronikası neft qoxulu şəhərin sürətli sənayeləşmə ilə bərabər, iri mədəniyyət mərkəzinə də çevrilməsini tam əks etdirmir. Tutalğa üçün əlac qalır qəzet səhifələrinə üz tutmağa.

"Kaspi" qəzetinin 18 aprel 1882-ci il tarixli nömrəsində teatrla bağlı bir xəbər diqqət çəkir:

"Nəhayət ki, bizim də isti, rahat, bütün zəruri qurğuları olan əsl teatrımız olacaq. Bu teatra görə cənab Tağıyevə minnətdar olacağıq ki, bu yaxşı əməlinə görə şəhər ona təşəkkür edəcək...".

Bu xəbərlə yanaşı, qəzetdə həmin gün Qafqazın yeni canişini knyaz A.M.Dondukov-Korsakovun Bakıya gələcəyi barədə xəbər də yer almışdı. Bakıda teatr binasının tikiləcəyi xəbərini açıqlamaq üçün bundan yaxşı fürsət olmazdı.

Ayın 20-də yeni canişin Bakı Dumasının üzvləri, yerli neftxudaların və şəhər əhalisinin nümayəndələri ilə görüşür. Görüşdə Hacı Zeynalabdin canişinə həm də teatr binası tikdirəcək şəxs kimi təqdim edilir. Tağıyev teatr binasını öz şəxsi mülkiyyəti olan torpaq sahəsində – Merkuri (indiki Zərifə Əliyeva) – Qorçakov (indiki H.Z.Tağıyev) – Pyotr bulvarı (indiki Neftçilər) kimi üç küçənin kəsişdiyi ərazidə tikdirmək istəyirdi. Həmin yerdə Tağıyevin taxıl anbarı vardı. O, anbar binasını sökdürərək onun möhkəm özülləri üstündə teatr binası tikdirmək istəyirdi.

Layihənin ilkin variantında tamaşa salonunda parter və loja yarusları daxil olmaqla 578 yer nəzərdə tutulmuşdu. Yeri gəlmişkən, həmin vaxt Bakının əhalisi 100 mini keçmişdi.

Birinci layihənin müəllifi memar Xrisanf Vasilyev teatr binası ilə eyni vaxtda Bakıda daha bir möhtəşəm layihə – dəmir yolu vağzalının binasının layihəsi üzərində çalışırdı. Maraqlıdır ki, bu tikili ilə Tağıyev teatrının fasadında oxşar cizgilər və müəllif dəst-xətti aşkar hiss olunur.

Layihədə teatrın dörd qapısı vardı: biri – qonşu bina ilə yanaşı, ikisi – küçədən, dördüncüsü – bulvardan.

Tikintiyə mühəndis-texnoloq Ferdinand İ.Lemkul rəhbərlik edirdi. Tikintinin təxminən 30 min rubla başa gələcəyi gözlənilirdi. Əvvəlcə, işlər sürətlə getsə də, sonradan ləngimələr başladı. Nəhayət, 1883-cü il noyabrın 27-də teatr təntənəli surətdə açıldı və ilk dəfə N.A.Potexinin "Ruhən yoxsullar" tamaşası oynanıldı.

### Uğursuzluqlar tarixçəsi

Açılış ilə iş bitmədi. Bina təhvil verilən zaman planlama, quraşdırma və yanğın əleyhi baxımından xeyli nöqsan aşkar edilmişdi. 1884-cü ildə şəhər idarəsinin müvafiq komissiyası yenidən teatr binasındakı qüsurları diqqətə çatdırdı və Tağıyev düzəlişlərə başlamaq barədə göstəriş verdi.

1891-ci ildə Tağıyevin oğlu Sadıq Tağıyev binanın sərəncamçısı təyin edildi və bina onun rəhbərliyi altında təmir edildi: dəhliz və tamaşa salonunun divarlarının rəngi dəyişdirildi: ağ divarlar qızılı çalarlı göyümtül qırmızı rəngə boyadıldı, bufet üçün yer ayrıldı. Ən vacib məqam! Teatra elektrik xətti çəkildi, təkcə içəri yox, binanın giriş qapıları da küçə tərəfdən elektrik fənərləri ilə işıqlandırılmağa başlandı. Əvvəllər bina şam ilə, 1891-ci ildən isə qazla işıqlandırılırdı. Binaya ara-sıra əl gəzdirilsə də, təməlli təmir olunmurdu. Tağıyev isə bərpa və yenidənqurma işlərinə başlatmaq əvəzinə bu binadan qurtulmaq fikrinə düşmüşdü. Binanın söküləcəyi tarix bəlli olan kimi bir qisim sahibkar "Nümunəvi teatrın tikilməsi üçün yoldaşlıq cəmiyyəti" qurdular. Qərara alındı ki, indiki Muzey mərkəzinin yerində teatr binası tikilsin.

Söz-söhbət çox, əməl az olduğundan Tağıyev teatr binası sahibi olmaq şansını itirmək istəmirdi. 1898-ci ildə yeni layihənin hazırlanması və bütün işlərə nəzarət mülki mühəndis P.İ.Koqnovitskiyə həvalə edildi. Lakin o, layihədəki heç bir nöqsanı aradan qaldırmadı və köklü dəyişiklik etmədi. Bu zaman Tağıyev cavan polyak memar İosif Qoslavskini işə cəlb etdi. Müqəddəs Aleksandr Nevski kilsəsinin tikintisini yenicə bitirmiş iddialı və istedadlı memar həvəslə işə başladı. Onun verdiyi layihəyə görə binada nəzərəçarpacaq dəyişikliklər edildi, salondakı oturacaqların sayı yeni loja yarusunun və səhnə ilə üzbəüz iki yaruslu balkonun tikilməsi sayəsində 1200-dək artırıldı. Akustika və orkestr çökəyi də təzədən quruldu. Parterin döşəməsinə maillik artırıldı. Foye, bufet və qrim otaqları da unudulmadı. Texniki məqamlar da nəzərə alınmışdı: işıqlandırma, istilik və ventilyasiya işləri görüldü. Teatrın yenidən qurulmasına Tağıyev 80 min rubl xərcləmişdi.



### Hər şey yaxşı gedirdi…

1899-cu ilin sonuna yaxın teatr binasında bütün işlər tamamlandı. 1902-1903-cü illərdə teatrda daimi direksiya yaradıldı. Fərdi icarədarlar dövrü bitdi və yeni rəhbərlik teatrın icarəyə verilməsi, binada cari təmir və yenidənqurmalar ilə məşğul olurdu.

30 noyabr 1906-cı il tarixli "Baku" qəzeti yazırdı: "Tezliklə müsəlman qadınları da Tağıyev teatrında tamaşaya baxa biləcəklər. Müsəlman dram truppasının Tağıyev teatrında tatar (Azərbaycan – müəl.) dilində verdiyi tamaşaları rahat seyr edə biləcəklər. Bu məqsədlə lojaların yan və ön tərəflərindən tül pərdə asılacaq".

Şəhərin yeganə teatr binası tamaşaçı tərəfindən korluq çəkmirdi. Binanın səhnəsi, orkestr çökəyinin olması həm musiqili, həm də dramatik tamaşalar göstərməyə imkan verirdi. İlk operamız – Üzeyir bəyin "Leyli və Məcnun" əsəri 1908-ci il yanvarın 8-də bu burada oynanılmışdı. Amma binanın başından bəla əskik olmurdu. 1909-cu il fevralın 21-də teatrda bədbəxt hadisə baş verdi: binada yerləşən bərbərxanadan başlayan yanğın bütün binanı bürüdü. Yanğın söndürüləndən sonra məlum oldu ki, binaya böyük zərər dəyib və onun sığortası yox imiş.



Binanın sahibi yalnız bir neçə aydan sonra teatrın taleyi ilə bağlı suallara aydınlıq gətirdi: bina bərpa olunacaq və onun təklif etdiyi layihəyə görə tamaşa salonu artıq iki yox, üçmərtəbəli olacaq ki, bununla da salondakı oturacaqların sayı 600 ədəd artacaq. Tağıyev belə istəyirdi.

Artıq 1910-cu il oktyabrın 1-də yenilənmiş teatr pərdələrini açdı. Tamaşaçılar təkcə tamaşadan (L.N.Tolstoyun "Maarifçiliyin bəhrəsi" pyesi oynanılmışdı) yox, əsas fasadı genişlənmiş, divarları bir qədər hundürləşmiş, səhnəsi böyümüş, texniki işıqlandırması, foye və bufetinin planı dəyişmiş binadan da razı qaldılar.

1918-ci il fevralın 1-də teatr binası yenidən yandı: küçədə baş verən atışmanın fəsadı olaraq binadakı bütün taxta detallar alışdı. Təkcə daş və dəmir-beton karkası salamat qalan binanın görkəmi ürək sızladırdı. Mütəxəssislər qərar çıxardılar ki, binanı dörd ay ərzində bərpa etmək olar. Bərpa etmək olardı, amma siyasət meydanında baş verənlər teatr binasının taleyini arxa plana atdı.

### Sağ olsun Zivərbəy ki…

Teatr binası bir də sovetləşmədən sonra, 1921-ci ildə yada düşdü. Bərpa layihəsini ilk peşəkar memarlıq təhsili almış milli kadr, sovet dövründə Bakının ilk baş memarı olmuş Zivərbəy Əhmədbəyov hazırlayır. O, binanı sıfırdan layihələndirsə də, fasada və Qoslavskinin etdiyi əlavələrə toxunmadı.

Tağıyevin qızı Sara xanım xatirələrində yazırdı ki, bir dəfə onların Mərdəkandakı bağına xalq maarifi komissarı Dadaş Bünyadzadə iki mühəndislə qonaq gəlir. Onlar teatrın bərpası ilə bağlı Hacı ilə söhbət edir, onun fikirlərini öyrənirlər. O da məsləhətini əsirgəmir.

Nəhayət, 1922-ci il yanvarın 17-də yenidən tikilmiş teatr binasının təntənəli açılışı olur. Hüseynqulu Sarabski, Mirzəağa Əliyev və Sidqi Ruhulla bütün əmlakından könüllü imtina etmiş, bağ evinə sığınmış Hacının yanına gəlib, onu bir zamanlar tikdirdiyi binanın yenidən açılışına dəvət edirlər.

Açılış gününün şahidlərinin xatirələrinə görə, nəinki tamaşa salonu, binanın foyesi də ağzına kimi doluymuş. Ölkəsi, xalqı üçün böyük işlər görmüş ahıl mesenat öz lojasında görünən kimi toplaşanlar "Çox sağ ol, Hacı, çox yaşa, Hacı!" deyərək ayaq üstə sürəkli alqışlayırlar. Səmimi qarşılanmadan riqqətə gələn Tağıyevin gözləri dolur, minnətdarlıq jesti olaraq əlini ürəyinin üstünə qoyaraq alqış səslərinin kəsilməsini gözləyib deyir: "Mən çox şadam ki, bir vaxtlar xalqım üçün tikdiyim teatr binasını xalq bərpa edib".

Həmin gün artıq bu teatrda daimi məskunlaşan Azərbaycan Dövlət Dram Teatrı M.F.Axundzadənin "Hacı Qara" tamaşası ilə mövsümü açır.

Sonrakı illərdə adı dəfələrlə dəyişdiriləcək indiki Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı 1960-cı ilədək Tağıyev teatrında məskunlaşacaq, sonra yeni binasına köçəcəkdi. Tağıyev teatrının binası isə Musiqili Komediya Teatrının (bugünkü Akademik Musiqili Teatr) kollektivinə veriləcəkdi.

### Ləmbəranskinin "son nəğməsi"

Tağıyev teatrının binası 1980-ci illərin sonuna yaxın dağılmağa başladı. Əvvəla, xeyli yaşı var idi və sovet hakimiyyəti illərində əsaslı təmir edilməmişdi. Bina artıq təmirolunmaz hala gəldiyindən 1992-ci ildə onu söküb yerində təzə bina tikmək barədə qərar qəbul edildi.

Həmin söküntü işləri aparılan vaxtlarda Azərbaycan Televiziyası Musiqili Komediya Teatrının aparıcı səhnə ustası, Xalq artisti Nəsibə Zeynalova haqqında veriliş hazırlamışdı. Həmin verilişdə belə bir kadr vardı: Nəsibə xanım teatra bitişik binadakı mənzilinin eyvanından söküntü işlərinə, xarabalığı xatırladan binaya baxır və göz yaşı tökür. Səhnədə, ekranda yaratdığı obrazların əksəriyyəti göz yaşı axıdılacaq situasiyalardan uzaq olsalar da, Nəsibə xanım ilk dəfə idi ki, tamaşaçı qarşısında özü kimi ağlayırdı. Belə lirik xatırlatmadan sonra yenidən faktlara qayıdaq.

Ulu öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıdandan sonra binanın taleyinə gün doğdu. Tağıyev teatrının tikilməsinə rəhbərlik Azərbaycanın böyük ziyalısı, bir nömrəli inşaatçısı kimi tanınan Əliş Ləmbəranskiyə həvalə edildi. 1998-ci il oktyabrın 10-da yenidən tikilmiş sənət məbədi Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" komediyası ilə bir daha sənətsevərlərin ixtiyarına verildi. Açılışda Prezident Heydər Əliyev də iştirak etdi.

### Son dövrün teatr məkanı

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan teatrı 2009-2019-cu illərdə Dövlət Proqramı"nda teatrların təmir-bərpa işlərinə də geniş yer ayrılmışdı. 2010-cu ildə Musiqili Komediya Teatrının tarixi binası təmirə bağlandı.

Binanın fasadı köhnə daş üzlükdən təmizləndi və aqlay (gülbax) daş örtüklə üzləndi. Bütün pəncərələr bütöv ağac parçalarından hazırlandı. Binanın istilik və ventilyasiya avadanlıqları üçün mansard tipli 6-cı mərtəbənin layihəsi cızıldı və tikildi. Dəmir-beton və metal konstruksiyalar gücləndirildi. Binadakı ornamentlər, əsas pilləkənlər, onların məhəccərləri İtaliya mərmərindən yığılıb. Akustik panelllər, onları bəzəyən mürəkkəb formalı yapma bəzəklər İtaliyanın "Sadi" şirkətində məxsusi olaraq bizim teatr üçün hazırlanıb. Teatrdakı bədii işləmələr İtaliyanın "Robertadoripuddu Studio" şirkəti tərəfindən yerinə yetirilib.

Budəfəki təmir təkcə binanın hər cür fəlakət və bədbəxt hadisələrə davamlılığını artırmaq, binanın interyer və eksteryerini gözəlləşdirməklə kifayətlənmədi. Yeni texnologiyaların tətbiqi nəticəsində binanın və səhnənin texniki imkanları xeyli genişləndirildi. Məsələn, tamaşaçılar üçün nəzərdə tutulan zonalarla divar və tavanların bərpasında akustik – səsi təcrid edən və əks etdirən panellər quraşdırıldı.

Tamaşa salonunda seyrçilərin səhnəni daha rahat seyr etməsi üçün bir sıra dəyişikliklər edildi. Parterdəki oturacaqların sayı 302-dən 160-a endirildi, əvəzində isə benuar lojalarında, hər tərəfdəki kuponlarda yerlərin sayı artdı, parterə 19 yerlik mərkəzi loja artırıldı. Salona bəzək verən çilçıraq stasionar vəziyyətdə qalırdısa, yeni çılçıraq tamaşa zamanı büsbütün tavana yığılır ki, bu da projektorların səhnəni işıqlandırmasına mane olmur.

Fırlanan səhnə dairəsinin diametri 9,5 metrdən 10,5 metrə çatdırıldı, 4 qaldırıcı qurğu və 1 çökəklə təmin olundu. Dekorasiya və aktyorları qaldırmaq üçün istifadə edilən ştangentlərin sayı 40-dan 48-ə çatdırıldı. Üç il ərzində teatr binasında aparılan təmir və bərpa işlərində İtaliya mütəxəssisləri çalışdılar.

Nəhayət, 18 aprel 2013-cü il tarixində bina təmir-bərpadan sonra istifadəyə verildi. Teatrın təntənəli açılış mərasimində Prezident İlham Əliyev iştirak etdi.

...Ölkəmizdə keçirilən beynəlxalq miqyaslı sənət tədbirlərinə, qastrola gələn əcnəbi kollektivlərə qucaq açan, müasirliyi və qədimliyi özündə üzvi şəkildə birləşdirən Tağıyev teatrı paytaxtımızın üzünü qonaq qarşısında ağardan məkanlardan biridir. Dəfələrlə yanğınlardan çıxmış bina dözüm və gözəlliyinə görə "simurq quşu" misallı memarlıq abidəmizdir...

**Gülcahan Mirməmməd**

**P.S.** *Teatr binalarımızın tarixinə ekskurslarımız davam edəcək.*

# Kinoda ilk uğurunu qazanmaq istəyənlər

## Film layihələri müsabiqəsində iştirak edən tələbələrlə görüş

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) tərəfindən bu ilin 18 iyul tarixində elan edilən film layihələri müsabiqəsinin ikinci mərhələsinə yekun vurulub. Müsabiqənin "Tələbə" altistiqaməti üzrə məqbul hesab edilmiş layihələrin həyata keçirilməsi prosesi ARKA tərəfindən Əməkdar incəsənət xadimi, kinorejissor Elxan Cəfərova həvalə olunub.




Noyabrın 17-də Azərbaycan Dövlət Film Fondunda rejissorla tələbələrin görüşü keçirilib.

ARKA-nın şöbə müdiri Rəşad Qasımov qeyd edib ki, seçim komissiyası üzvlərinin qiymətləndirməsinə əsasən, ikinci mərhələdən dövlət sifarişi, kommersiya, sənət və debüt istiqamətində 30 layihə məqbul hesab edilərək növbəti mərhələyə keçib. O cümlədən 16 tələbə layihəsi məqbul hesab olunub: "Belə qərara gəlindi ki, müsabiqədə iştirak edən tələbələrin kurs və diplom işlərinə də dəstək göstərilsin. Bunun üçün bir mexanizm düşünüldü və kinorejissor Elxan Cəfərov müsabiqənin tələbə layihələrinin bədii rəhbəri təyin olundu. Bu layihələrin həyata keçirilmə mexanizmindən yaradıcı və istehsalat planlarına nəzarət onun tərəfindən reallaşdırılacaq".

Rejissor Elxan Cəfərov tələbələrin ssenariləri ilə tanış olub, prosesin gedişi barədə məlumat verib.

Daha sonra tələbələri maraqlandıran suallar cavablandırılıb. Görüş qarşılıqlı fikir mübadiləsi şəklində davam edib.

Qeyd edək ki, film layihələri müsabiqəsinin növbəti – layihələrin müdafiəsi (pitçinq) mərhələsi 23-24 noyabr tarixlərində Azərbaycan Dövlət Film Fondunda təşkil olunacaq.

Pitçinqdə layihələrin təqdimatı müəlliflər tərəfindən həyata keçiriləcək, iştirakçılar layihələrini açıq müdafiə edəcəklər. Bu mərhələdə seçim komissiyası və ekspert şurasının rəyi əsasında müəyyən olunacaq qalib layihələr 27 noyabr tarixində ARKA-nın rəsmi internet səhifəsində (arka.culture.az) elan ediləcək.

İştirakçıların müsabiqənin yekun nəticələri ilə bağlı şikayətləri olarsa, apellyasiya komissiyası bu barədə müvafiq qərar qəbul edəcək.

**Nurəddin**

# Qısa filmlər festivalından qısa-qısa təəssürat






Kinomanlar üçün yaxşı təşkil edilmiş və zəngin proqrama malik festival payızda da yaz günəşitək parlaq təəssüratlıdır. Noyabrın 10-dan 15-dək davam edən XIV Beynəlxalq Qısa Filmlər Festivalı da belə təəssüratla yadda qaldı.

### "Oskar"lı irlandlar

Festival Tom Berkli və Ross Uaytın "Oskar" mükafatlı "İrlandsayağı vidalaşma" filmi ilə açıldı. Film maşının arxa oturacağında qucağında vəfat etmiş analarının kremasiyasından qalan külü toplanmış saxsı qab tutan kiçik oğul, sükan arxasında oturmuş böyük oğul və onun yanındakı keşişin yol getməsi ilə başlayır. Onlar qardaşların ferması yerləşən malikanəyə gəlib çatırlar. Keşiş sağollaşıb gedəndə analarının arzularından ibarət siyahının onda olduğunu və elə onda da qalacağını qardaşlara bəyan edir, çünki siyahını onlara verməkdə heç bir məna görmür.

Lakin keşiş çıxıb gedəndən sonra qardaşının Londona köçməsindən məmnun olmayan kiçik qardaş onu malikanədə saxlamaqdan ötrü siyahıda yazılan arzuları həyata keçirməyi təklif edir. Yalnız bundan sonra o, Londona köçə bilər. Böyük qardaş razılaşır. Burda rejissor maraqlı bir fənd işlədib – qardaşların hər ikisi, əslində, arzular siyahısından xəbərsizdir. Amma böyük qardaş kiçik qardaşın analarının arzuları kimi qələmə verdiyi uydurma siyahıda yazılanların hamısını onunla birlikdə reallaşdırır. Başqa sözlə, analarının əsl arzusunu – oğlanlarının mehriban qardaşlar münasibətində olub malikanəyə, fermaya sahiblik etməsini.

"İrlandsayağı vidalaşma" tipik irland filmidir – ekran əsərində nəinki kino nəhəngi Amerikanın, heç hər hansı Avropa ölkəsinin təsirini sezmək mümkün deyil. Xarakterlər, davranışlar, dialoqlar, replikalar, natura və interyer təsvirləri də həmçinin. Film komikliklə dramatikliyin, duyğusallığın "qızıl" ortasında, qısametrajlı film meyarları qədərindədir.

### "Raket start meydançasında olanda"

Çin-ABŞ istehsalı olan "Raket start meydançasında olanda" filmi müstəqil həyatın astanasında dayanan yeniyetmələrdən bəhs edir. Rejissor Bohao Liu Çin Xalq Respublikasında kasıb təbəqədən olan qızların həyatda öz bacarıqlarını ifadə etmək, maraqlandıqları elm sahəsi və ya idman növü ilə məşğul olmaqdan ötrü necə çabaladıqlarını real cizgilərlə təsvir edir.

Filmin Amerika kinematoqrafçıları ilə birgə çəkilməsi mövzunun açılmasına müsbət təsir göstərməyib. Çin kino estetikasının spesifikliyi mono kinokamera ilə bu mövzunu daha koloritli aça bilərdi. Yeri gəlmişkən, ekran əsəri festivalda "Münsiflər heyətinin xüsusi qeydi" mükafatını qazanan filmlərdən biri oldu.

### Mənliyin müstəqillik günü

Qazax rejissor Cəmilə Sağınxanın "Müstəqillik gününüz mübarək!" filmi şəxsi hüzn fonunda üstəlik, işsiz qalmaq problemi ilə də üzləşən 54 yaşlı Muradın əhvalatı üzərində qurulub. Hadisə Qazaxıstanın Müstəqillik Günündə başlayır. Murad paytaxtda məmur işində çalışan oğlunun anasının vəfatının ildönümünə gəlməyə macal tapmamasından narazıdır. Özü isə ingilis dilini bilmədiyi üçün ixtisara düşüb. İngilis dili kurslarına yazılmağa gəlir. Tədris qiyməti baha olduğu üçün vaz keçmək istəyəndə kursun rəhbəri ona qazax dili müəllimliyi işini təklif edir. Beləliklə, həm ingilis dilini öyrənmək şansı, həm də yeni iş yeri qazanır. Özü də ingilis dilini elə səviyyədə öyrənir ki, onu əvvəlki işinə qayıtmağı təkidlə təklif edirlər (qürur və nəzakətlə imtina edir). Kursda isə günlərin bir günü hətta ingilis dili müəllimini əvəz etməyi xahiş edirlər...

Rejissor nə çəkdiyini, necə çəkdiyini çox yaxşı qavradığı, filminə kənardan baxmağı bacardığı üçün "Müstəqillik gününüz mübarək!" filmi ağır mövzunu, ciddi mətləbi çox incə, rahat bir kino dilində tamaşaçıya çatdırır. Qəhrəman sevgi və ehtiram hissi doğurur, çünki əməlisaleh insan, vicdanlı, məsuliyyətli vətəndaş obrazını inandırıcı detallarla canlandırır.



### Orta yaş böhranı

Belarus kinematoqrafçılarının festivala təqdim etdikləri "Banket" filmi orta yaş böhranı yaşayan Alekseyin əhvalatından bəhs edir. O, doğulub boya-başa çatdığı şəhərcikdə yaşayır. Sinif yoldaşı ilə evlənib. Bir oğlu və bir qızı var. Oğlu evlənib ayrı yaşayır, qızı isə instituta daxil olub yataqxanaya köçüb. Ailəsindən boşanmış və indi vaxtını tanışlıq saytları ilə doldurmağa çalışan dostu Alekseyə də bunu təklif edir. Amma o, belə əyləncələrə baş qoşmaq istəmir. Elə bu söhbətin ardınca arvadı ilə televizora baxarkən vaxtilə onların sinif yoldaşı olmuş, indi isə tanınmış bir artist kimi doğma şəhərində qastrol səfərində olan xanıma diqqət kəsilir. Arvadı qeyd edir ki, məktəb vaxtı onun səndən çox xoşu gəlirdi və zarafatla qeyd edir ki, niyə fikir vermirdin ona, indi tanınmış artistin əri ola bilərdin. Bundan sonra kişi keçmiş sinif yoldaşının konsertinə gedir, tanınmış artist xanım onu çox istiqanlı qarşılayır, məktəb vaxtı hiss etdirməyə çalışdığı duyğularını indi açıq etiraf edir. Konsertdən sonrakı banketdə kişi cəsarətlənir və keçmiş sinif yoldaşı ilə yaxınlıq etmək istəyir. Lakin qadın onu ikrah hissi ilə itələyib deyir ki, bir özünə bax, doğrudanmı sən güman etdin ki, biz birlikdə ola bilərik?...




Filmin rejissoru İrina Qmirin ideyası aydındır. Lakin bu ideyanı gerçəkləşdirən ifadə vasitələri tamamilə yararsızdır – əsas personajların davranışları da həmçinin. Bayaqdan bəri mehriban keçmiş məktəb yoldaşı və az qala sevgili olmağa hazırlaşmış kimi görünən xanımın ilk məhəbbətinin naqolay ifadəsini ikrahla rədd etməsi qeyri-təbii görünür. Buna görə də film bayağı təsir bağışlayıb.

### Marketinq və səmimiyyət

Türkiyəli Erinc Durlanıkın "Satıcının bir günü" filmi dövrümüzün həm tələbatına, həm də bəlasına çevrilmiş marketinq bacarıqlarına həddən ziyadə önəm verilməsini incələyir. Film rejissora nəql edilən real əhvalat – dini kitablarla Cümhuriyyət tarixinə dair kitabların eyni bir mağazada satılmasını düzgün saymayan gerizəkalı birinin mövqeyinə etiraz üzərində qurulub.

Gənc xanım kitab mağazasında işə düzəlir. Təcrübəli xanım ona bu işin incəliklərindən bəhs edir. Onların çox fərqli insanlar olduğu dərhal nəzərə çarpır – gənc xanım çox səmimi, təcrübəli xanım isə səmimiyyət rolunu oynamağı bacarandır. Və marketinq bilgilərinin sonucda iflasa uğrayacağı da aşkardır – gənc xanım qeyri-dürüstlüyü aşkar edəcəyi andaca bu işdən uzaqlaşacaq. Onların arasında kifayət qədər yaş fərqi də var. Amma yaşının bura heç bir dəxli yoxdur, fərqli səciyyə onunla birlikdə doğulub.

Film real kitab satışı və sifarişi mərkəzində çəkilib. Çəkiliş inkoqnito aparılıb və bu cəhətlər "Satıcının bir günü"nü həm ekran əsəri, həm də sosial ismarış olaraq baxımlı edir. Film festivalın "Asiya istedadları" bölməsində "Ən yaxşı rejissor" nominasiyasında qalib oldu.

### Çərçivədəki ümid

Daha bir türkiyəli rejissor Volkan Girginin "Ümid" filmi zəmanəmizin müharibələr, milli qarşıdurmalar, köçkünlər, mühacirlər probleminə özünəməxsus çərçivədən baxır. "Çərçivə" kəlməsi burda təsadüfən işlənməyib. Film yeniyetmə ikən valideynləri ilə birlikdə Bolqarıstandan Türkiyəyə köçməyə məcbur edilən ahıl türk qadınının böyük bir çərçivəyə salınmış ailə fotosunu qucağından buraxmaq istəməməsi ilə başlayır. Son nəfəsinədək fotoşəkil onun qucağında qalır. Vəfat edəndən sonra həkim şəkli qızına verir. Sonrakı epizodda çərçivəli fotonun tullantılar konteynerində görürük. Bu dəfə də bir qadın onu götürüb evinə aparır. Çərçivəsi keyfiyyətli olduğu üçün əvvəlki sahiblərinin fotosunu çıxarıb öz ailə fotosunu salır çərçivəyə, amma ilkin sahiblərin fotosunu tullamır, öz fotosunun altında gizlədir. Bu ailənin başına daha pis bədbəxtlik gəlir – evləri yerlə yeksan olur, çərçivəli fotoşəkli isə sahildə qızı ilə yol gedən ukraynalı qaçqın tapır və onu özünə götürür ki, öz ailəvi şəklini bu çərçivəyə salsın və Ukraynaya qayıdacaqları günü gözləsin.

Beləliklə, çərçivə zaman ötdükcə daha acınacaqlı ailə talelərinin tarixçələri ilə dolub-daşır. Filmin adı "Ümid" olsa da, süjet ümidsizlik saçır. Lakin hər halda ümid ən sonda ölən bir hiss olduğu üçün filmdə dünyamızın hər hansı qarşıdurmalardan qurtulmasına inam da yox deyildir. O cümlədən ümidin çərçivədən çıxmasına…

***

XIV Beynəlxalq Qısa Filmlər Festivalının son günü qaliblər təltif edildi. Hər bir festivaldan mədəniyyətimizin mükafatı isə daha önəmlidir – bu, tamaşaçı marağıdır. Festival günləri zalı ağzınadək dolu görmək, seanssonrası qızğın müzakirələri müşahidə etmək bunun sübutu idi...

**Samirə Behbudqızı**

## Xatirə təqvimi — 22–24 noyabr

### Azərbaycan

**22 noyabr 1922** – Böyük bəstəkar, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı Fikrət Məşədi Cəmil oğlu Əmirov (1922 – 20.2.1984) Gəncədə doğulub. Simfonik muğamlar ("Şur", "Kürd-Ovşarı", "Bayatı-Şiraz"), "Nizami" simfoniyası, "Azərbaycan kapriççiosu", "Sevil" operası və s. musiqi əsərlərinin müəllifidir. Bəstəkarın "Min bir gecə" baleti dünya musiqi xəzinəsinə daxildir. Filmlərə musiqi yazıb.

**22 noyabr 1922** – Xalq yazıçısı Hüseyn Abbas oğlu Abbaszadə (1922 – 12.12.2007) Bakıda anadan olub. Kitabları: "General", "Ləpədöyəndə", "Burulğanlar", "Çəmbərəkənd balladası" və s.

**22 noyabr 1933** – Görkəmli kinorejissor, operator, Xalq artisti Rasim Mirqasım oğlu Ocaqov (1933 – 12.7.2006) Şəkidə doğulub. "Sən niyə susursan?", "Onun böyük ürəyi" və s. filmlərin quruluşçu operatoru olub. "Tütək səsi", "İstintaq", "Ad günü", "Ölsəm, bağışla", "Təhminə", "Otel otağı" və s. filmlərə quruluş verib.

**22 noyabr 1933** – Yazıçı-jurnalist Firudin Balakişi oğlu Ağayev (1933-1995) Lerik rayonunda doğulub. Əsərləri əsasında "Skripkanın sərgüzəşti", "İşarəni dənizdən gözləyin" və s. filmlər çəkilib.

**22 noyabr 1938** – Xalq artisti, Dövlət mükafatı laureatı Həsən Ağaməmməd oğlu Məmmədov (1938 – 27.8.2003) Salyan rayonunda anadan olub. "Böyük dayaq", "Gün keçdi", "Yeddi oğul istərəm", "İstintaq", "Axırıncı aşırım" və s. filmlərdə yaddaqalan obrazlar qalereyası yaradıb. Akademik Milli Dram Teatrında çalışıb.

**22 noyabr 1940** – Müğənni, skripka ifaçısı, Əməkdar incəsənət xadimi, professor Rauf Zülfüqar oğlu Adıgözəlov (1940 – 29.6.2002) anadan olub.

**22 noyabr 2012** – Xalq artisti, görkəmli aktyor Yaşar Məmmədsadıq oğlu Nuri (3.9.1951 – 2012) vəfat edib. Akademik Milli Dram Teatrında fəaliyyət göstərib. Televiziya tamaşalarında, filmlərdə yaddaqalan obrazlar yaradıb.

**22 noyabr 2013** – Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**22 noyabr 2021**– Əməkdar incəsənət xadimi, bəstəkar Asya Baxış qızı Sultanova (16.10.1923 – 2021) vəfat edib. 1950-ci illərdən Moskvada yaşayıb, mahnılarını dövrün məşhur müğənniləri oxuyublar.

**23 noyabr 1923** – Yazıçı, şair Əmrah Bala oğlu Əmrahov (1923-1988) Bakının Kürdəxanı kəndində anadan olub. Kitabları: "Ürək vətən üçün döyünəndə", "Ulduzlar gecə parlar", "Dağ bənövşəsi" və s.

**23 noyabr 1927** – Tarixçi, şərqşünas, professor Əhməd Əhməd oğlu İsgəndərov (1927-2017) Bakının Mərdəkan kəndində doğulub. Moskvada yaşayıb, SSRİ EA-nın Ümumi Tarix İnstitutunda baş elmi işçi, direktor müavini, "Tarix məsələləri" jurnalının baş redaktoru işləyib. Rusiyanın Əməkdar elm xadimi, Rusiya EA-nın müxbir üzvü olub.

**23 noyabr 1936** – Ədəbiyyatşünas, yazıçı-dramaturq, professor Aqşin Əlisəttar oğlu Babayev (1936 – 10.6.2020) Bakıda anadan olub. Türk ədəbiyyatına dair tədqiqatların, "Ayrılıq", "Dünyanın axırı" və s. kitabların, tərcümələrin müəllifidir.

**23 noyabr 1937** – Əməkdar artist Zemfira Nəriman qızı Quliyeva (1937 – 3.11.1997) Gəncə şəhərində anadan olub. 1963-cü ildən Musiqili Komediya Teatrında çalışıb.

**23 noyabr 1948** – Dahi bəstəkar, publisist, pedaqoq, SSRİ Xalq artisti Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli (18.9.1885 – 1948) vəfat edib. Azərbaycan professional musiqisinin banisi, müsəlman Şərqində ilk operanın, ilk musiqili komediyanın müəllifidir. Azərbaycan EA-nın akademiki olub.

**23 noyabr 1999** – Xalq artisti, görkəmli teatr və kino aktrisası Leyla Ağalar qızı Bədirbəyli (8.1.1920 – 1999) vəfat edib. Dövlət mükafatı laureatı laureatı olub.

**23 noyabr 2011** – Prezident İlham Əliyev tanınmış ictimai xadim, publisist, Əməkdar jurnalist Nəsrulla İmanquliyevin 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**24 noyabr 1906** – Ədəbiyyatşünas Əli Nazim (Ələkbər Mahmud oğlu Mahmudzadə; 1906 – 23.8.1941) Təbrizdə doğulub. Repressiya qurbanı olub.

**24 noyabr 1922** – Əməkdar artist, vokalçı Rəhilə Muxtar qızı Cabbarova (1922 – 2.12.2002) Tiflisdə doğulub. Opera və Balet Teatrının solisti olub, Mədəniyyət və İncəsənət Universitetində dərs deyib.

**24 noyabr 1924** – Əməkdar incəsənət xadimi, rəssam Vəcihə Əli qızı Səmədova (1924 – 24.10.1965) anadan olub. Tanınmış şəxsiyyətlərin portretlərinin, mənzərə və tematik tabloların müəllifidir.

**24 noyabr 1997** – Prezident Heydər Əliyev Aşıq Ələsgərin 175 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**24 noyabr 2001** – Əməkdar incəsənət xadimi, aktyor, sirk ustası Siyavuş Məmməd oğlu Şəfiyev (1.9.1937 – 2001) vəfat edib.

### Dünya

**22 noyabr 1869** – Fransız yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1947) laureatı Andre Pol Qiyom Jid (André Gide; 1869–1951) anadan olub.

**22 noyabr 1916** – Amerika yazıçısı Cek London (Jack London – John Griffith Chaney; 12.1.1876 – 1916) vəfat edib. "Martin İden", "Dəmir daban", "Dəniz canavarı" və s. romanların müəllifidir.

**23 noyabr 1875** – Rus yazıçısı, sənətşünas, publisist Anatoli Vasilyeviç Lunaçarski (1875-1933) anadan olub.

**23 noyabr 1933** – Polyak bəstəkarı və dirijoru Kşiştof Pendereski (Krzysztof Penderecki; 1933 – 29.3.2020) anadan olub.

**24 noyabr 1632** – Niderland filosofu, rasionalizm cərəyanının tanınmış nümayəndəsi Benedikt Spinoza (Benedictus de Spinoza; 1632–1677) anadan olub.

**24 noyabr 1934** – Rusiya (alman əsilli) bəstəkarı, pianoçu və musiqi nəzəriyyəçisi Alfred Şnitke (1934-1998) anadan olub.

**Hazırladı: V.Orxan**

# Məhtimqulu Fəraqinin 300 illiyinə həsr olunmuş konfrans



Türkmən xalqının və Türk dünyasının mütəfəkkir şairi Məhtimqulu Fəraqinin 300 illik yubileyi ilə bağlı AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda elmi konfrans keçirilib. Konfrans Türkmənistanın Azərbaycandakı Səfirliyi və AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə birgə təşkil edilib.

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Əlyazmalar İnstitutunun baş direktoru akademik Teymur Kərimli, Türkmənistanın ölkəmizdəki səfiri Qurbanmammet Elyasov çıxış ediblər.

"Türkmənfilm" studiyasının istehsalı olan "Haqqın qulu – Məhtimqulu" sənədli filmi nümayiş etdirilib.

Sonra şairin həyat və yaradıcılığı ilə bağlı məruzələr dinlənilib.

BDU-nun Türkoloji araşdırmalar elmi-tədqiqat laboratoriyasının müdiri filologiya elmləri doktoru, professor Ramiz Əskərin türkməncədən dilimizə tərcümə etdiyi "Məhtimqulu. Seçilmiş əsərləri" kitabı təqdim olunub.

Tədbirdə Məhtimqulu Fəraqinin şeirləri də səsləndirilib.

Sonda konfrans iştirakçıları Əlyazmalar İnstitutunda türkmən şairinin əlyazma nüsxələri və nadir eksponatlarla tanış olublar.

# Beş gün "Mistik aləmlər"də...

## Vədud Müəzzinin Bakıda sənətsevərlərlə növbəti görüşü

Muzey Mərkəzinin sərgi qalereyasında Cənubi Azərbaycandan tanınmış rəssam Vədud Müəzzinin Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində "Mistik aləmlər" adlı fərdi sərgisi keçirilib.






Noyabrın 17-də açılan sərgidə Azərbaycan Rəssamlar İttifaqının katibi Xalq rəssamı Ağaəli İbrahimov qeyd edib ki, Vədud Müəzzinin əsərləri dünyanın bir çox ölkələrində sərgilənib və böyük diqqətlə qarşılanıb. Bugünkü sərgi rəssamın Azərbaycan təbiətinə sevgisini nümayiş etdirir. Bundan əlavə, dərin cizgili portretlər də ziyarətçilərin ixtiyarına verilir.

Xalq rəssamı Arif Hüseynov da həmkarının rənglər dünyasından danışıb. Əməkdar incəsənət xadimi, sənətşünas Ziyadxan Əliyev müəllifin Bakıda sayca beşinci dəfə təşkil olunan sərgisinin özəlliyini qeyd edib. Bildirib ki, yaradıcılığında realizmə üstünlük verən rəssamın Azərbaycan sevgisi kətan üzərində rənglərin mistikasında təsvir edilib. O həm də istedadlı xanəndə kimi tanınır.

Vədud Müəzzin sərginin təşkilatçılarına və iştirakçılara minnətdarlığını ifadə edib. Diqqətə çatdırıb ki, "Mistik aləmlər" sərgisində nümayiş olunan əsərlər son illərin məhsuludur. Onların bəziləri ilk dəfə bu məkanda təqdim edilir.

Qeyd edək ki, sərgidə müəllifin 50-yə yaxın əsəri nümayiş olunub. Bu əsərlərdə tamaşaçı təbiətin sehri ilə baş-başa qalır. Rəsmlərin bir çoxu atlara həsr olunub. Müəllif onları cilovsuz – azad şəkildə təsvir edib.

Vədud Müəzzin 1960-cı ildə Cənubi Azərbaycanın Ərdəbil şəhərində anadan olub. Rəssam indiyədək ABŞ, Kanada, Fransa və Almaniyada fərdi və qrup şəklində sərgilərdə iştirak edib.

"Mistik aləmlər" sərgisi noyabrın 21-də başa çatıb.

**Lalə Azəri**

# Sənətdə "Anlam" olanda...

## Rəssam Soltan Soltanlının sərgisi





Müasir İncəsənət Muzeyində tanınmış rəssam Soltan Soltanlının rəngkarlıq və qrafika əsərlərindən ibarət "Anlam" adlı sərgisi açılıb. Sərgidə rəssamın son illərdə yaratdığı 55 rəngkarlıq, 15 qrafik əsəri nümayiş olunur.

Noyabrın 17-də açılışa qatılan çoxsaylı sənətsevərlər qarşısında çıxış edən Soltan Soltanlı deyib: "Fikrimcə, rəsm əsəri tamaşaçı ilə danışmalı, özünü ona izhar etməli, tablo ilə seyrçi arasında hansısa anlaşılmazlıq qalmamalıdır. Ona görə bu gün sərgidə görəcəyiniz əsərlərimi mümkün olduqca "danışdırmışam", ən dərin anlamları onlara yükləmişəm, düşüncə və duyğularımı tamaşaçılara sadə yolla çatdırmağa çalışmışam".

Rəssam sənəti insan həyatına yön verən, yol göstərən amil kimi gördüyünü deyir: "Düşünürəm ki, tamaşaçı sənətin aydınladan və təmizləyən gücü ilə mənəvi dincliyə, rahatlığa qovuşa bilər. Bunun üçün müasir incəsənət öz varlığını, taleyini anlatmalı, tamaşaçını düşüncəyə bağlamalıdır".

Sərgidəki əsərlərin hansı üsluba aid olmasına gəlincə, rəssam bildirib ki, əvvəllər özünü bu və ya digər cərəyanların birinə aid edirdi: "Sonra gördüm ki, hansısa cərəyana aid olmaq, onlarla məhdudlaşmaq deməkdir. Əslində mən "anlam"a aidəm. Bu isə mənə hər hansı cərəyanla məhdudlaşmamaq imkanı verir. Sərgidəki əsərlər bir dəyər altında birləşir. Həmin dəyərin adı "anlam"dır...".

Rəssam mövzularını həyatın içindən çıxarır, hadisələrə dərin məna yükü verir və onları tamaşaçıya qeyri-adi şəkildə təqdim edir. Sərgidəki əsərlər "Qadın", "At", "Xəyali mənzərələr", "Qarışıq" kimi mövzular üzrə təqdim olunur.

Qeyd edək ki, Soltan Soltanlı təsviri sənətin rəngkarlıq, qrafika və karikatura sahələri ilə məşğul olur. 1997-ci ildən müxtəlif ölkələrdə keçirilən beynəlxalq yarışma, festival və sərgilərə qatılaraq Azərbaycanı uğurla təmsil edir. Bir çox mükafatlara layiq görülüb, əsərləri kataloqlarda nəşr olunub, muzey və şəxsi kolleksiyalarda yer alıb.

Rəssamın Müasir İncəsənət Muzeyindəki sərgisi dekabrın 2-dək davam edəcək.

# "Yarqı" "Emmi" mükafatı aldı

Türkiyədə "Kanal D" ekranında artıq üçüncü mövsüm yayımlanan "Yarqı" serialı ABŞ-də beynəlxalq "Emmi" mükafatına layiq görülüb. Noyabrın 21-nə keçən gecə Nyu-Yorkdakı "Hilton Midtown" hotelində keçirilən mərasimdə 20 ölkədən 14 kateqoriyada 56 film təmsil olunub.

Serialın prodüseri Kərəm Çatay, rejissoru Əli Bilgin, ssenaristi Səma Ergenekon, baş rol oyunçuları Pınar Dəniz və Kaan Urgancıoğlunun qatıldığı gecədə "Ay Yapım"ın istehsalı olan "Yarqı" "Ən yaxşı telenovella" nominasiyasında qalib olub. Bu, "Qara sevda"dan (2015-2017-ci illərdə "Star" kanalında yayımlanıb) sonra "Emmi" mükafatı qazanan ikinci Türkiyə serialıdır.

Sənədli film kateqoriyasında Kanadanın hindu mənşəli müğənnisi Baffi Sent-Mari haqqında çəkilən eyniadlı film mükafat alıb. Rejissorluq üzrə mükafata "Balaji Telefilms" şirkətinin həmtəsisçisi hindistanlı rejissor Ekta R.Kapur layiq görülüb.



Qeyd edək ki, "Emmi" mükafatı ABŞ-nin Beynəlxalq Televiziya İncəsənət və Elmlər Akademiyası (IATAS) tərəfindən verilir. Beynəlxalq "Emmi" mükafatı (International Emmy Awards) ilə ABŞ-dən kənarda istehsal olunan ekran işləri təltif olunur. Amerikanın yerli teleməkanı üçün "Emmi" mükafatlarının təqdimatı isə Hollivudda işçilərin tətili səbəbindən gələn ilin yanvarına ertələnib.




## Olaylar, faktlar
## (21–23 noyabr)

### 105 il əvvəl...

**22 noyabr 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Ədliyyə Nazirliyinin Əsasnaməsini təsdiq edib. Bu tarix Azərbaycan ədliyyə işçilərinin peşə bayramı günü kimi qeyd olunur.

### 80 il əvvəl...

**22 noyabr 1943-cü ildə** Livan müstəqilliyini elan edib. XVI əsrdən 1918-ci ilədək Osmanlı imperiyasının tərkibində olan Livan daha sonra Fransanın mandatı altına keçmişdi. Müstəqilliyin ilk dövrü Livanda xristian-müsəlman toqquşmaları, 1975-1990-cı illər vətəndaş müharibəsi ilə müşayiət olunub. Konfessiyalararası razılaşmaya görə, ölkədə prezident xristian, baş nazir müsəlman-sünni, parlamentin sədri müsəlman-şiə olmalıdır.

### 74 il əvvəl...

**22 noyabr 1949-cu ildə** Sumqayıt şəhərinin yarandığı gündür. Xəzər sahilində yeni şəhərin salınması 1938-ci ildə burada istilik elektrik stansiyasının tikintisi ilə başlanıb. 40-cı illərdə kimya və metallurgiya zavodlarının təməli qoyulub. Şəhərin tikintisində SSRİ-nin bütün respublikalarından inşaatçı dəstələr iştirak edib. 1949-cu il noyabrın 22-də Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Sumqayıta şəhər statusu verilib.

### 60 il əvvəl...



**22 noyabr 1963-cü ildə** ABŞ-nin Texas ştatının Dallas şəhərində Prezident Con Fitscerald Kennedi qətlə yetirilib. ABŞ-nin 35-ci prezidenti növbəti seçki kampaniyasında iştirak etmək üçün Dallasa gəlmişdi. Prezidenti üç atəşlə qətlə yetirən ABŞ dəniz piyadası Li Osvald iki gün sonra həbsxanaya aparılarkən Kennedinin pərəstişkarı Cek Rubi tərəfindən öldürüldü.

### 31 il əvvəl...

**21 noyabr 1992-ci ildə** Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının (YAP) təsis konfransı keçirilib. Təsis konfransında partiyanın məramnamə və nizamnaməsi qəbul olunub, rəhbər orqanları seçilib. Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev açıq səsvermə əsasında YAP-ın sədri seçilib.

### 27 il əvvəl...

**21 noyabr 1996-cı ildə** BMT-də ilk dəfə Dünya Televiziya Forumu keçirilib. Bu əlamətdar hadisə ilə bağlı BMT Baş Assambleyası (17 dekabr 1996) tərəfindən 21 noyabr – "Dünya Televiziya Günü" təsis edilib.

### 21 il əvvəl...




**21 noyabr 2002-ci ildə** NATO-nun Praqa (Çexiya) sammitində yeddi ölkənin – Rumıniya, Bolqarıstan, Slovakiya, Sloveniya, Litva, Latviya və Estoniyanın alyansa dəvət olunması barədə qərar edilib. Sözügedən ölkələr 2004-cü ilin aprelində NATO-ya tamhüquqlu üzv olundular.

### 20 il əvvəl...

**23 noyabr 2003-cü ildə** Gürcüstanda parlament seçkiləri (2 noyabr) ilə bağlı etiraz aksiyaları Prezident Eduard Şevardnadzeni istefa verməyə məcbur edib. Mixail Saakaşvili və silahdaşlarının rəhbərliyi altında "məxməri inqilab" baş verib, seçkilərin nəticələri ləğv olunub. 2004-cü ilin yanvarında Saakaşvili prezident seçildi, mart ayında isə onun tərəfdarları yeni parlament seçkilərində qalib gəldilər.

### 16 il əvvəl...

**22 noyabr 2007-ci ildə** Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Gürcüstan hissəsinin (Tbilisi-Axalkalaki-Türkiyə sərhədi) təməlatma mərasimi keçirilib. Mərasimdə Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri İlham Əliyev, Mixail Saakaşvili və Abdullah Gül iştirak ediblər. Bakı-Tbilisi-Qars dəmir yolu xətti 30 oktyabr 2017-ci ildə istifadəyə verildi.

**Hazırladı: V.Orxan**

# Sankt-Peterburqda Heydər Əliyevin 100 illiyi münasibətilə musiqi gecəsi

Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Sankt-Peterburqda klassik musiqi gecəsi təşkil edilib. Konsert Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, ölkəmizin Sankt-Peterburqdakı baş konsulluğu və Tavriya sarayının birgə təşkilatçılığı ilə gerçəkləşib.



Xalq artisti, dirijor Yalçın Adıgözəlovun rəhbərliyi altında "Tavriya" simfonik orkestrinin müşayiəti ilə Əməkdar artistlər Elnarə Məmmədova, Regina Rüstəmova, Mariinski Teatrının solistləri Məhərrəm Hüseynov və Həmid Abdulovun ifasında Azərbaycan və Rusiya bəstəkarlarının əsərləri səslənib.

Tədbirdə Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin, Mədəniyyət Nazirliyinin, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin, Azərbaycan diasporunun, yerli dövlət orqanlarının və ictimaiyyətin təmsilçiləri iştirak ediblər.

Yalçın Adıgözəlov qeyd edib ki, Sankt-Peterburqda Ulu öndər Heydər Əliyevi çox yaxşı xatırlayırlar. "Onların bəziləri həyatdadır və mən onların bir neçəsi ilə görüşdüm, xatirələrimizi bölüşdük. Tavriya sarayının möhtəşəm salonunda Heydər Əliyevin yubileyi şərəfinə gecədə iştirak etmək mənim üçün böyük şərəfdir", – deyə dirijor bildirib.

# Napoleonun papağı boş qalmadı...

## Hərracda 1,9 milyon avroya satılıb

Fransa imperatoru Napoleon Bonaparta (1769-1821) məxsus keçə papaq Parisdə hərraca çıxarılıb.

İmperatorun papağı noyabrın 19-da "Osenat" satış evində 1 milyon 932 min avroya satılıb. Satış evinin məlumatına görə, papaq hərracdan əvvəl 600-800 min avro dəyərində qiymətləndirilirdi.



On beş illik hakimiyyəti dövründə Napoleonun xarakterik formaya malik 120-yə yaxın papağı olub. Hərracda alıcılara imperatorun saçı və dəsmalı, Müqəddəs Yelena adasında taxdığı əlcəklər və geyindiyi köynək də təklif edilib.

Qeyd edək ki, imperator Avropa müharibələrində məğlubiyyətindən və hakimiyyətinin tam süquta uğramasından sonra, 1816-cı ildə Atlantik okeanındakı (Afrika qitəsindən 2800 km qərbdə) Müqəddəs Yelena adasına sürgün edilmiş və 1821-ci ildə burada ölmüşdü. Adada sürgündə olan zaman yaşadığı ev və dəfn olunduğu yer Fransaya aid tarixi abidə kimi qorunur.

# Almaniyada yeni miqrasiya qanunu

## "Mavi kart" əldə etmək asanlaşıb

Almaniyada yeni miqrasiya qanununun bir neçə maddəsi qüvvəyə minib. Artıq bu ölkədə "mavi kart" əldə etmək xeyli asanlaşıb. Bunun üçün tələb olunan minimum illik əməkhaqqı 43800 avroya endirilib. Əvvəllər Almaniyada illik ən azı 58400 avro əməkhaqqı olan iş tapanlar "mavi kart" əldə edə bilərdilər. Daha çox tələb olunan peşələr (riyaziyyatçılar, mühəndislər, həkimlər, IT mütəxəssisləri) üçün isə həmin məbləğ 39683 avroya qədər azaldılıb.

"Mavi kart" almaq istəyənlər üçün alman dilini bilmək tələbi də aradan qaldırılıb. Eyni zamanda, "mavi kart" sahibləri qazancları imkan verəcəyi təqdirdə təkcə uşaqlarını deyil, yaşlı valideynlərini də Almaniyaya gətirə biləcəklər.

Orta ixtisas və ali təhsilli əmək miqrantlarına müvəqqəti yaşayış icazəsinin və işləmək hüququnun verilməsi qaydalarında da dəyişiklik edilib. İndi bunun üçün tələb olunan bütün meyarlara cavab verəcəyi təqdirdə onların viza və müvəqqəti yaşayış icazəsi almaq hüququ olacaq.

## Elan

36 nömrəli Uşaq musiqi məktəbi tərəfindən 2017-ci ildə Bəkirova Səmra Vəkil qızının adına verilmiş P10677 seriyalı şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5053. **Sifariş:** 3102
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641